***RAMAZAN HÜSEYNOV***

# *QƏRBİ AZƏRBAYCAN*

***Bakı***
***Şirvannəşr***
***2006***

**Ramazan Hüseynov. Qərbi Azərbaycan.**

**Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)**
**Şirvannəşr, 61(934) 2006**
Naşir ***Qəşəm İsabəyli***

*Redaktoru*
***Azad Qaradərəli***
*jurnalist*

***R 83.3 Az(2)***
***054***

***©Ramazan Hüseynov, 2006***

***Ünvan: Bakı – Az 1021, Badamdar şos. 77.***
***Tel:492-92-27, 492-93-72, 434-70-94, (050) 316-23-40***

## *I HİSSƏ*

### Faktlar nə deyir

1813-1828-ci ilə qədər Azərbaycanın sahəsi: təxminən 410 min kv.km.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan – sahəsi təxminən 280 min kv.km.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan - sahəsi təxm. 130 min kv.km.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı - sahəsi 9 min kv.km.

Rusiya əsarəti altındakı Dərbənd xanlığı - sahəsi 7 min kv.km.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazi - təxminən 114 min kv.km.

1920-ci ildə ADR-i işğal edən rus-Sovet İmperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının nəzarətinə verilən Zəngəzur, Göyçə, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı - birlikdə sahəsi: təxm. 27, 4 min kv.km.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi - 86,6 min kv.km.

Azərbaycanın 1988-1994-cü illərdə işğal olunmuş əraziləri:

**Dağlıq** Qarabağ (Şuşa, Xankəndi, Xocavənd, Xocalı, Əsgəran, Ağdərə, Hadrut): İşğal tarixi – 1988

**Laçın** (18 may 1992-ci il) - 1835 kv.km.

**Kəlbəcər** (2 aprel 1993-cü il) - 1936 kv.km.

**Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.

**Cəbrayıl** (23 avqust 1993-cü il) - 1050 kv.km.

**Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.

**Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.

**Zəngilan** (29 oktyabr 1993-cü il) - 725 kv.km.

Beləliklə, Azərbaycanın, deyildiyi kimi, 20 faiz yox, təxminən 80 faiz ərazisi işğal altındadır.

### Qərbi Azərbaycan

Bilgə Kağanın sözləri yada düşür: «Ey türk oğuz bəyləri! Türk xalqı, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz. Su təki axıtdığın qanına kimi yığdığın sümüklərinə layiq ol! Ey ölümsüz türk ulusu, özünə dön»!

Şamilin sözləri: «İşğal olunmuş Vətən torpaqları yalvarışla qaytarılmaz, döyüşlə alınar».

İndi Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus Cənubi Qərbi Qafqaz Respublikası mövcud olub. 1918-ci ilin 18 noyabrından 1919-cü ilin 2 aprelinədək ömür sürmüş bu respublikanın ərazisi Batum, Əspircə, Axalcixe, Ağbaba, Qəmərli və bir sıra bölgələr daxil olmaqla Naxçıvanadək uzanıb. Bəzi tarixi sənədlərdə həmin dövlət «Qars hökuməti» kimi təqdim olunur ki, bunun da səbəbkarı «Mudros» müqaviləsidir. Bəs biz CQQR haqqında nə bilirik? Əvvəlcə ensiklopedik məlumata nəzər salaq. 2004-cü ildə professor Yaqub Mahmudovun baş redaktorluğu ilə nəşr olunan «Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında CQQR haqqında deyilir.

**Cənub-Qərbi Qafqaz Cümhuriyyəti (CQQC),** Qars Demokratik Cümhuriyyəti - Birinci dünya müharibəsi (1914-18) dövründə erməni-daşnak silahlı quldur dəstələri tərəfindən türk-müsəlman əhalinin soyqırımına məruz qaldığı Cənub-Qərbi Qafqazda yaranmış demokratik respublika. Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında Mudros barışığı (1918) ərəfəsində və ondan az sonra Cənub-Qərbi Qafqazda bir neçə dövlət qurumu yarandı. 1918-ci il oktyabrın 29-da Ömər Faiq Nemanzadənin başçılığı ilə Axıska hökuməti quruldu. 1918 il noyabrın 5-də «Qars İslam Şurası» adı ilə milli hökumət yaradıldı. Bu hökuməti yaradanlar sırasında Piroğlu Fəxrəddin (Ərdoğan) bəy, əslən Borçalıdan olan Kəpənəkçi Emin ağa və b. vardı. Noyabrın 14-də birinci Qars konqresi çağırıldı. Bölgələrin milli şura rəhbərlərinin qatıldığı konqresdə Emin ağa hökumət funksiyasını yerinə yetirən «Qars İslam Şurası»na sədr seçildi. Noyabrın 30-da «Qars İslam Şurası»nın dəvəti ilə Naxçıvan, Ordubad, Qəmərli, Sürməli (İqdır), Şərdi Şörəyel, Axıska, Axalkələk və Batum bölgələrindən gələn 60 nəfərlik nümayəndə heyətinin iştirakı ilə 2-ci Qars konqresi keçirildi. Batumdan Ordubada qədər ərazidə Qars İslam Şurası hökuməti quruldu. 12 nəfərdən ibarət hökumətə əslən gümrülü olan, sonralar Qarsa köçən İbrahim bəy Cahangirzadə rəhbərlik edirdi. İ.Cahangirzadə rus ordusunun zabiti olmuş və Araz Türk Cümhuriyyətinin hərbi naziri kimi, bölgə əhalisinin silahlandırılmasına və hərbi təlimlər keçməsinə rəhbərlik etmişdi. Qars Milli Şura hökumətinin əsas vəzifəsi daşnakların türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlarının və bölgəni işğal etməyə çalışan gürcü qoşunlarının hücumlarının qarşısını almaq və əhalinin təhlükəsizliyini təmin etmək idi.

1919-cu il yanvarın 13-də ingilis generalı Bisç Qarsa gələrək, Ermənistanın Stepan Korqanovu Qars vilayətinin başçısı təyin etdiyini bildirdi. Milli Şura hökumətinin rəhbərləri ingilis generalına bəyan etdilər ki, bölgə əhalisinin 85%-i türklərdən ibarətdir və vilayətin rəhbərliyinə erməninin təyin edilməsi Vilson prinsiplərinə ziddir. Bundan sonra general Bisç Milli Şura hökumətini tanıdığını bildirdi və Gümrüyə qayıtdı.

Bölgə təmsilçilərinin 1919-cu il yanvarın 17-də Qarsda keçirilən toplantısında Cənub-Qərbi Qafqaz hökumətinin yaradıldığı elan olundu. Bu siyasi qurum Cənub-Qərbi Qafqaz və ya Qars Demokratik Cümhuriyyəti adlandı. CQQC-

nin 18 maddədən ibarət Konstitusiyası qəbul olundu. Cümhuriyyətin 40 min kv. km ərazisi, 1,7 milyon nəfər (1,5 milyonu türk-müsəlman) əhalisi vardı. Dövlət dili olaraq türk dili qəbul olunmuşdu. Üçrəngli (ağ, yaşıl və qara), ay-ulduzlu bayrağı vardı. Batumdan həftədə üç dəfə çıxan «Sədayi millət» qəzeti hökumətin rəsmi orqanı idi. Beləliklə, Rusiya imperiyasının dağılması ilə əlaqədar olaraq Qars, Batum, Axalsıx, Axalkələk, Şərur, Naxçıvan, Sürməli və İrəvan qəzasının cənub-şərq hissəsinin əhalisi öz müstəqilliyini elan etdi.

Qısa müddətdə CQQC-nin Müvəqqəti hökuməti təşkil edildi. İbrahim bəy Cahangirzadə cümhurbaşqanı seçildi. Nazirlər şurası beynəlmiləl tərkiblə təşkil olunmuşdu. Xarici işlər naziri vəzifəsinə türk Piroğlu Fəxrəddin bəy, xalq maarifi naziri vəzifəsinə əvvəlcə yunan M.Andreyanot, sonra isə türk, müəllim Mehmed bəy Kocaoğlu təyin edilmişdilər.

Partiyalar olmadığından, 65 bitərəf deputatdan ibarət parlament yaradıldı. Doktor Əsəd bəy Oktay (Əsəd bəy Hacıyev) parlamentin sədri seçildi. Parlament respublikanın xarici və daxili siyasətinin aşağıdakı istiqamətlərini müəyyənləşdirdi: 1) CQQC bütün qonşuları ilə, xüsusən yeni yaradılmış Qafqaz dövlətləri ilə mehriban qonşuluq əlaqələri qurmaq niyyətindədir; 2) CQQC neytral dövlətdir; 3) CQQC-nin vətəndaşları milliyyətindən, dinindən, sosial mənşəyindən, siyasi əqidəsindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər.

Yeni yaranan dövlət ixtisaslı kadrlar və maliyyə baxımından çətinliklərlə üzləşirdi. CQQC-nin köməyinə ümid bəslədiyi ilk dövlət Azərbaycan Xalq Cümhuriyyəti idi. Azərbaycan Cümhuriyyətinin Batumdakı konsulu məsələ ilə bağlı Bakıya teleqram göndərərək bildirdi ki, CQQC əhalisi Azərbaycan Xalq Cümhuriyyətinin ona hərtərəfli yardım edəcəyinə böyük ümidlər bəsləyir. CQQC hökuməti 1919-cu il yanvarın 25-də Azərbaycan Xalq Cümhuriyyətinə müraciət edərək, hərbi və maddi yardım istəmişdi. Buna cavab olaraq, Azərbaycan Hökuməti CQQC-nə hərbi təlim keçmək üçün zabitlər və xeyli qızıl pul göndərdi.

CQQC, sülhsevər mövqeyinə baxmayaraq, yarandığı gündən Ermənistan və Gürcüstan hökumətlərinin təcavüzkar xarici siyasəti ilə üzləşdi. Respublikanın silahlı qüvvələri 15,5 min nəfərdən ibarət idi. Bu qüvvə ilə iki dövlətin – Ermənistan və Gürcüstanın təzyiqlərinə davam gətirmək mümkün deyildi. Digər tərəfdən, Ermənistan və Gürcüstanı ingilislər də dəstəkləyirdilər. İngilislər CQQC-nin ərazisini Ermənistan və Gürcüstan arasında bölüşdürmək istəyirdilər. Onlar üzdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini CQQC ilə bağlı status-kvonu saxlayacaqlarına inandırmağa çalışsalar da, əslində, CQQC-nin ləğvi istiqamətində fəaliyyət göstərirdilər. CQQC Müvəqqəti hökumətinin sədri Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə 1919-cu il 26 yanvar tarixli notasında bildirirdi ki, Gürcüstan Ərdəhan mahalını və Axalsıx qəzasını işğal etməyə cəhd göstərir. Bütün müsəlman əhalisi buna qarşı ayağa qalxmışdır. Ermənilər də Naxçıvan qəzasına hücumlar edirlər. Gürcülərin Axalsıx və Axalkələk qəzalarına hücumları zamanı 45 min davar aparılmışdı. Ermənilər 1919-cu il aprelin 12-də ingilislərin dəstəyi ilə

Qars vilayətinə soxuldular. Azərbaycan Cümhuriyyəti Hökuməti ermənilərin Qarsda törətdiyi soyqırımı ilə bağlı Britaniya komandanlığına etirazını bildirdi. Buna baxmayaraq, CQQC-nə kömək göstərmək ingilislərin planlarına daxil deyildi. Əksinə, ingilislər CQQC hökumətinin 35 üzvünü həbs edərək, zirehli qatarda Gümrüyə, oradan da Batum yolu ilə Malta adasına sürgünə göndərdi. Bununla da, Cənub-Qərbi Qafqaz Cümhuriyyəti süqut etdi. Aprelin 14-də ingilis generalı Devinin tövsiyəsilə 6 türk, 1 rus, 1 yunandan ibarət yeni Milli Şura yaradıldı. Aprelin 19-da S.Korqanov Qarsda qubernator kimi fəaliyyətə başladı. Bunun ardınca, erməni qoşunları Qars vilayətinə soxuldular. Yerli müsəlman-türk əhali dəhşətli soyqırımına məruz qaldı. Aprelin 30-da qondarma Milli Şura ləğv edildi. 1920-ci ilin payızınadək Cənub Qərbi Qafqaz Cümhuriyyətinin ərazisi ermənilərin və gürcülərin işğalı altında qaldı.

İ.Cahangirzadə başda olmaqla, CQQC-nin Hökumət üzvləri yalnız 1921-ci il mayın 23-də Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun köməyi sayəsində Maltadan əsirlikdən vətənə qayıtdılar. Bəs İ.Cahangirzadə haqqında nə bilirik?

**İbrahim Bəy Cahangiroğlu, Cahangirzadə** (1874, Gümrü - 19.5.1948, Qars) - dövlət xadimi, hərbçi, erməni-rus istilaçılarına qarşı fəal mübariz. Cənub-Qərbi Qafqaz hökumətinə başçılıq etmişdir. Gümrüdə və Qarsda mədrəsədə oxumuş, üç il Qars şəhər məktəbində rus dilində təhsil almışdır. Zəngin və tanınmış ailədən olduğundan Aleksandropol (Gümrü) kazak alayına qəbul edilmiş, beş il burada təlim keçdikdən sonra zabit rütbəsi almaq ərəfəsində Qarsdakı gizli «İslam cəmiyyəti» ilə əlaqələri müəyyən edilərək, Dağıstana sürgün olunmuşdur (1903). Əfv fərmanına əsasən, 6 aydan sonra azad olunaraq Qarsa qayıtmış və maliyyə məmuru işləmişdir. 1905-06-cı illərdə ermənilər Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirərkən könüllü dəstə toplayaraq, qardaşı Hasanxanla birlikdə Qarabağa köməyə gəlmiş, 1906-cı ildə oradan öz dəstəsiylə Təbriz vilayətinə keçmişdir. İbrahim bəy Qarsa qayıtdıqdan sonra vilayət qubernatorunun icazəsi ilə erməni komitəçilərinə qarşı «Nəşri-maarif» cəmiyyətini qurmuş, eyni zamanda, Azərbaycandakı «Difai» partiyası ilə gizli əlaqə yaratmış, habelə «İttihad və Tərəqqi» partiyası Ərzurum şöbəsinin üzvü olmuşdur. 1907-ci ildə Xoya köçmüş, Təbrizdə hürriyyət mücadiləsinə qoşularaq, şah rejiminə qarşı mübarizə aparan bir dəstəyə başçılıq etmiş, 1912-ci ilin oktyabrında 700 mücahidlə Türkiyəyə - Van vilayətinə qayıtmışdır. 1913-cü ilin martında «İttihadçı»ların dəvətilə öz könüllülərilə birgə İstanbula getmiş, üç ay yarım təlim keçən «Qafqaz könüllü taburu» onun komandanlığı altında Ədirnəni bolqarlardan azad etmişdir.

1914-cü ilin noyabrında Türkiyənin hərbi naziri Ənvər paşa İbrahim bəyi könüllüləri ilə birlikdə İran və İraq cəbhələrinə göndərmişdir. Burada o, rus ordusuna qarşı vuruşmuşdur. 1918-ci ilin mayında Ənvər paşa onu İstanbula çağıraraq «Fəxri alay komandanı» sifətilə 9-cu Ordu komandanı Yaqub Şevqi paşanın sərəncamına göndərilmişdir. İyunun ortalarında Şörəyel qaymakamı təyin

edilən İbrahim bəy İrəvan və digər bölgələrdən olan qaçqınları ətraf kəndlərə yerləşdirmiş, onlara hər cür qayğı göstərmişdi. Araz-Türk Respublikası hökumətinin hərbi naziri seçilən İbrahim bəy 20 tabur (batalyon) təşkil etmişdir. Bu taburlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Vedibasar, Qəmərli və Zəngibasarda yerləşdirilərək, həmin bölgələrin əhalisini ermənilərin törətdikləri soyqırımlarından müdafiə etmişdir. Həmin il noyabrın 30-da keçirilən Böyük Qars konqresində Araz-Türk Respublikası hökuməti ilə Qars, Ahisqa, Artvin və Batum sancaqlarını əhatə edən Milli İslam Şurası birləşərək, Batumdan Ordubada qədər ərazidə Milli Şura hökuməti quruldu və İbrahim bəy onun başçısı seçildi. 1919-cu il yanvarın 18-də keçirilən konqresdə mərkəzi Qars olmaqla qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyəti hökumətinin də başçısı İbrahim bəy idi. 40 min kv.km sahəsi və 1,7 milyondan çox əhalisi (1,5 milyonu türk-müsəlman) olan bu dövlət 6 ay öz ərazisini erməni və gürcü basqınlarından qorumuşdur.

Müstəqil daxili və xarici siyasət yeridən bu hökuməti 1919-cu ildə ingilislər yıxdı, başda İbrahim bəy olmaqla, hökumət üzvləri evləri və əmlakları müsadirə edilməklə, Malta adasına sürgün olundular.

1921-ci ildə Nəriman Nərimanovun köməyilə sürgündən azad edilən qarslılar əski rus təbəəsi bəhanəsiylə Tiflisə göndərildilər. Tiflisdən Bakıya gələn İbrahim bəy arvadı Mələk xanımı və oğlunu Gəncədə Xudadat bəy Rəfibəylinin himayəsində tapdı və onun köməyi ilə Qarsa qayıtdı. İbrahim bəy Kazım Qarabəkir paşanın tövsiyəsilə avqustda Qarsda keçirilən seçkilərdə iştirak edib, şəhər valisi seçilmiş, 1921-27-ci illərdə Qars bələdiyyə rəisi işləmiş, sonra ticarət məmuru olmuşdur.

## *II hissə*

## Tarix nə deyir

Ermənistanın paytaxtı İrəvanın, qədim Çuxur Səd torpağının altında-üstündə qalan və qalmayan maddi-mədəniyyət abidələri, əlvan sənət inciləri təsvirli daş sənduqələri, qayalara həkk olunmuş yazılar və rəsmlər, ümumiyyətlə bütün memarlıq nümunələri yalnız və yalnız Azərbaycanlılara məxsusdur. 1655-ci ildə İrəvana gəlmiş Jan Babtist Taverniyenin əsərlərində (birinci cild) qeyd edilir ki, şəhər qalasında yalnız müsəlmanlar yaşayır. On səkkiz il sonra burada olmuş başqa bir fransız səyyahı Jan Şardenin oncildliyinin yenə birinci cildində göstərilir ki, İrəvan qalasını özlüyündə kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Müəllif yazırdı: "Şəhər torpaqlarını cənub-qərbdən axan Qırxbulaq və şimal-qərbdən axan Zəngi çayları suvarır. Sərdarın sarayı çox gözəl, möhtəşəm bir imarətdir. Min addım o yanda bir qala bürcü ucalır, ona burada «Keçi qalası» deyirlər...»

Taverniyen və Şardendən sonra Avropa Səyyahlarından Cemelli, Kerr-Porter, Ceyms Moriyen, Monpero, Kameron, Linç, Dübüa, və b. da yüksək sənətkarlıqla inşa edilmiş, diqqətəlayiq, zövqoxşayan memarlıq abidələri ilə zəngin olan İrəvan qalasını, Xan sarayını, onun «Şüşəbənd» adı ilə tanınmış güzgülü salonunu, qaladakı min bir bəzəkli məscidləri, hovuz və hamamları, Zəngi çayınadək enib gedən mərmər pilləkənli yeraltı yolu, qala ətrafında-şəhər imarətləri, karvansara və meydanları müstəsna heyranlıqla təsvir etmişlər.

İrəvan XV əsrdən inzibati mərkəz kimi tanınıb. Qaraqoyunlular (1410-1467) və Ağqoyunluların (1467-1500) hökmranlığı dövründə coğrafi mövqeyinə və yerli şəraitinə görə adı geniş yayılıb, Çuxur Səd vilayətinin inzibati mərkəzi olub. Şəhərə söykənmiş Cəfərabad (Arqaval) kəndində indi də ucalmaqda olan bir türbə həmin dövrün yadigarıdır. Türbə bişmiş kərpicdən və daşdan tikilib. Kitabəsində Əmir Sədin və onun oğlu Pir Hüseynin adları çəkilir. Pir Hüseyn Yaqub bəydən əvvəl Çuxur Səd vilayətinin əmiri olub. Kitabədə həmçinin Qaraqoyunlular sülaləsinin başçısı Qara Yusif (1410-1420) sərkərdəliyindən bəhs olunur, onun oğlu Pir Budağın böyük hökmdar olması qeyd edilir. Şəksiz ki, türbə Qara Yusifin Teymuriləri məğlub edib Kürün cənubundakı Azərbaycan torpaqlarını, Gürcüstan, Ermənistan, Ərəb İraqını ələ keçirdikdən sonra öz oğlu Pir Budağı Təbrizdə padşahlıq taxtına oturtmaq haqqında verdiyi fərmanla əlaqədar ucaldılmışdır.

İrəvanda qala, yeni binalar tikmək, abadlıq işləri aparıb şəhəri möhkəmləndirmək haqqında Şah İsmayılın (1502-1524) vəziri Rəvanqulu xana ciddi tapşırıqlar verməsindən söhbət açan Yervand Şahəziz bu qənaətə gəlmişdir ki, İrəvan və Rəvanqulu adları arasında heç bir əlaqə yoxdur, çünki İrəvanın adı VII əsrdə bəlli olmuşdur. Əvvəldə dediyimiz kimi, bu kökündən yanlış

fikirdir. ...Məhəmməd Xudabəndə (1578-1587) dövründə şəhər torpaqlarını suvarmaq üçün iri bir göl (uzunluğu 400, eni 250 sajin) tikilmiş, yeni arxlar çəkilmişdir. 1678-ci ildə tikilən, Sovet hakimiyyəti illərində bərpa olunan, indi S.Şaumyanın adını daşıyan bu gölə yerli əhali yenə də «Toxmaq» gölü deyir. Toxmaq o zaman İrəvan hökmdarı olmuş Mahmud xanın ləqəbidir. 1605-ci ildə Şah Abbas İrəvanı osmanlılardan aldıqdan sonra Əmirquna xan Yerevana sahib olan kimi quruculuq işlərinə başladı, şənlik yaratdı, qala tikdi, saray ucaltdı, bağ-bağça, bostan saldı, arxlar çəkdirib şəhərin suyunu artırdı..

1679-cu il iyunun 4-də zəlzələ İrəvanı yerlə-yeksan etmişdi. İrəvanın yeni hökmdarı təyin olunmuş Zal xanı təbrik etmək üçün zəlzələdən bir qədər əvvəl buraya gəlmiş Əylisli Zəkəriyyə həmin hadisəni belə qələmə almışdır: «Daş daş üstə qalmadı. Məscidlər, karvansaraylar, kilsələr də dağıldı, qala yerlə-yeksan oldu. Körpülər yatdı, sular batdı, ölən qalandan çox oldu. Ətrafda it-pişik də gözə dəymirdi. Abbasqulu xanın kürəkəni Zal xan çapar göndərib bu sitəm haqqında dörd yana xəbər yaydı. Gəncədən 800 adam gəldi. Məhəmməd xan Naxçıvandan böyük bir dəstə gətirdi. Bərdədən, Zəyəmdən, Makudan, Təbrizdən, qonşu xanlıqlar və sultanlıqlardan o qədər adam gəlmişdi ki, qala ətrafında tərpənməyə yer yox idi. Azərbaycan vəziri Mirzə İbrahim iyulun 1-də Təbrizdən gəlib İrəvanda əyləşdi. Qala yenidən ucaldı, daha möhkəm oldu, arxlar çəkildi, körpülər salındı. Məscidləri, karvansaraları, kilsələri yenidən tikdilər. Şəhər dirçəldi, əhali bərpa olunmuş evlərə qayıtmağa başladı. İrəvanın məhəllələri, bulaqları, çayları, bağları, dağ və təpələri indi də el arasında (bir qismi isə rəsmi sənədlərlə) öz adlarını qoruyub saxlamışdır. Məsələn, İ.Şopenin verdiyi məlumata görə XVIII əsrdə İrəvanın üç iri məhəlləsi olmuşdur: Şəhər, Təpəbaşı, Dəmirbulaq. Eyni adı yaşadan həmin məhəllələr indi də şəhərin iri məhəlləri sayılmaqdadır. XVIII əsr səyyahlarının təsvir etdikləri şilə (qırmızı parça) boyayanlar, sabun bişirənlər, göy rəngli parça boyayanların məhəllələri yenə əvvəlki kimi «Şiləçi», «Sabunçu», «Boyaqçı» adlarını daşıyır. İrəvanda, həm də xanlığın bütün ərazisində fars, ərəb, erməni dili deyil, məhz Azərbaycan dilinin üstün təsir gücünə malik olduğunu və geniş yayıldığını aşağıdakı faktlar bir daha sübut edir. Matenadaranın arxiv fondunda (Kilsə divanı, səh.290, 391) saxlanılan məktubu 1784-cü ildə kahin Qukas yazmışdır. Məktubda Gürcüstana II İrakliyə, Bayazidə İsaak Paşaya göndərilmiş toxumların siyahısı verilmiş, miqdarı və qiyməti göstərilmişdir. Qəribə görünsə də faktdır ki, kilsə xadimi erməni dilinin mahir bilicisi bu kahin, toxumların, demək olar hamısının adını azərbaycanca yazmışdır: buğda, qarpız, qara qarpız, yonca, xiyar, ispanaq, reyhan, badımcan, gül... Xanlığın ərazisi, sərhədləri haqqında söhbət açılan bütün əsərlərdə, hətta dərsliklərdə yer adları bu qaydada verilmişdir: Arpa çayından Qızıl kilsə kəndinədək... Hacı Bayraməli kəndində Qəbir dağadak... Koroğlu dağından Arazboyu Naxçıvanadək, Şəruradək... yaxud, xanlığa daxil olan mahalların (nahiyələrin) adlarına fikir verək:

Qırxbulaq, Vedibasar, Şərur, Sürməli, Saatlı, Seyidli, Sərdarabad, Talin, Zəngibasar, Abaran, Dərəçiçək, Dərəkənd, Gərnibasar, Göyçə.

İrəvanın qədim tarixinə dair əldə olan məlumat çox azdır. Bunun bir səbəbi İranlılarla Osmanlılar arasında fasilələrlə 386 il davam edən müharibələr şəhərin 14 dəfə əldən ələ keçməsi və nəhayət, 1679-cu il zəlzələsində yerlə-yeksan edilməsidir. Burada yaşayan əhalinin sayı və milli tərkibi haqqında ilk və nisbətən dəqiq məlumatı birinci dəfə İ.Şopen vermişdir. Onun hesablarına görə son sərdar zamanı İrəvanda 2400 ailə, 12 min nəfər yaşamışdır. Şəhər ruslar tərəfindən alınandan sonra yerli kubar ailələrin bir qismi İrana köçmüş, ermənilər isə İrandan və Türkiyədən buraya qayıtmışlar. Müharibənin sonunda (1828) əhalinin milli tərkibi belə olmuşdur: azərbaycanlılar - 1807 ailə, 7331 nəfər, ermənilər - 567 ailə, 2369 nəfər. 1501-ci ildə I Şah İsmayıl Şərur mahalında Ağqoyunlu padşahı Əlvənd Mirzəni məğlub etdi. Ağqoyunlu dövlətinə son qoyuldu, İrəvan qalasının yerində gözəl bir bağ salındı, xan imarəti tikildi. Şah İsmayıl İrəvanı möhkəmləndirmək haqqında tədbirlər gördü. II Şah İsmayıl qardaşı kor Məhəmməd Xudabəndə dövründə, 1578-ci ildə İrəvan qalasının yerində gözəl bir bağ salındı, xan imarəti tikildi. 1583-cü ildə Fərhad paşa həmin yerdə qalanın əsasını qoydu. Xudabəndinin oğlu I Şah Abbas dövründə Əmirquna xan İrəvanın hökmdarı təyin olunduqdan sonra qala genişləndirildi, Matenadaranda (fars əlyazmaları fondu, N-233) saxlanılan bir sənəd bu barədə müfəssəl və səhih məlumat verir: Hüseynəli xan qalanı daha möhkəm və əzəmətli etmək üçün Əhməd xanın baş memarı Mirzə Cəfəri Xoydan çağırıb İrəvana gətirtmişdir. Hüseynəli xanın oğlu Məhəmməd xan da 1791-ci ildə güzgülü salonu, yay imarətini tikdirmişdir... ABŞ-da xarici işlər üzrə müşavir H.Hentse yazmışdır ki, XIX əsrin axırında ermənilər İrəvan xanlığını əhatə edən əhalinin 20 faizindən çoxunu təşkil etməmişlər. Başqa bir xarici tədqiqatçı, C.Makarti isə yazmışdır ki, İrəvan vilayəti... 1828-ci ilə qədər 80 faiz müsəlmanlardan ibarət olmuşdur. Eyni fikri əsrimizin əvvəllərində rus tarixçisi N.Şavrov da qeyd etmişdir. Onun fikrincə, XIX əsrin I rübündə İrəvan quberniyasında ermənilər son dərəcə azlıq təşkil etmişlər. Paskeviç hələ o dövrdə yazmışdı ki, İrəvan vilayətində 10 min müsəlman ailəsi 3000 erməni ailəsi yaşamışdır. Erməni tarixçisi A.Qioanisyan isə yazır ki, XIX əsrin I rübündə ermənilər İrəvan şəhəri əhalisinin dörddə bir hissəsini, azərbaycanlılar isə böyük əksəriyyətini təşkil edirdilər. 1828-ci ilin martın 21-də I Nikolay çar Rusiyasının Cənubi Qafqazı, o cümlədən Azərbaycanı işğal etməsində ermənilərin rus qoşunlarına etdikləri köməyi nəzərə alıb, o da onlara hədiyyə İrəvan vilayətini yaratmışdı ki, həmin vilayət iki qəzaya-İrəvan və Naxçıvan qəzalarına bölündü.

Tarixçi Nazim Mustafanın Cənubi-Qərbi Qafqaz Demokratik Cumhuriyyəti /Qars hökuməti də adlanır/ və onun tərkibinə daxil olan Ağbaba Milli Şurası barədə qeydlərini sizə təqdim edirəm. Onu da qeyd edim ki, bu dövr tariximiz ya heç öyrənilməmiş, ya da çox pis öyrənilmişdir. Ona görə də bu dövrün tədqiqinə həsr

olunmuş bütün yazılar gözdən keçirilməlidir. Bəzi məlumatlar təkrar xarakteri daşısa da, yazmağı məqsədəuyğun bildik.

«Xalqımızın tarixinə qanlı səhifələrlə yanaşı, bir çox şanlı səhifələr də yazılmışdır. Belə səhifələrdən bir çoxu 1918-1920-ci illərdə yazılmışdır. Əhalisi əsasən azəri türklərindən ibarət olan Qars vilayətinin sayılıb-seçilən kişiləri Azərbaycan və Türkiyə dövlətlərinin dəstəyi ilə əvvəlcə Qars Milli İslam Şurasını yaratmış, sonra isə müstəqil Cənubi-Qərbi Qafqaz Demokratik Cümhuriyyətinin yaradılmasını elan etmişlər. Tarixi ədəbiyyatda Qars Hökuməti adı ilə tanınan bu qurumlar yerli əhali arasında səfərbərlik həyata keçirmiş, Ermənistan ordusunun bölgəni tamamilə işğal etmək cəhdinin qarşısını ala da bilmişdir. Bu yazıda həmin bölgədə yaradılan 12 Milli Şuradan biri-Ağbaba Milli Şurasının qəhrəmanlıq tarixindən bəhs edilir. Xatırladırıq ki, Ağbaba nahiyəsi 1921-ci ildə Ermənistana birləşdirildikdən sonra onun ərazisində Amasiya rayonu yaradılmışdır ki, 1988-ci il deportasiyasınadək həmin rayonda 21 azərbaycanlı kəndi mövcud idi.

İndiki Ermənistanın Türkiyə ilə Yuxarı Arpaçay sərhədi boyunda yerləşən Ağbaba bölgəsi 1877-1878-ci illər rus-türk müharibəsindən sonra hərb təzminatı əvəzinə Üç Sancağın (Qars, Ərdəhan, Batum) tərkibində Rusiyaya birləşdirilmişdi. Ağbaba nahiyəsi Qars vilayətinin hərbi-inzibati ərazi bölgüsü daxilində Qafqaz Canişinliyinə tabe edilmişdir. XX əsrin əvvəlində Ağbaba nahiyəsində 39 kənd mövcud olmuşdur ki, bunlardan da cəmisi 2 kənddə-Qaraməmməd və Bəziganda «qaxdağan» (köçkün) ermənilər yaşayırdılar. 1915-1916-cı illərdə Türkiyənin içərilərindən köçüb gələn «qaxdağan» ermənilər «Daşnaqsütun» partiyasının proqramına uyğun olaraq Ağbabanın Gümrüyə yaxın aran kəndlərinə hücumlar edib, onları, Türkiyənin içərilərinə doğru qaçqın düşməyə məcbur etmişlər. Macal tapıb qaça bilməyən kimsəsiz qocaları, xəstələri və uşaqları quyulara atıb ağzını bağlamış, yaxud saman damına doldurub, üstlərinə neft tökərək hamısını yandırmışlar. Rusiyada 1917-ci il noyabr çevrilişindən sonra rusların Şərqi Anadolu cəbhəsində qoyub getdikləri cəbhəxanalara sahib çıxan ermənilər Qars vilayətinin hər yerində olduğu kimi Ağbabada da dinc əhaliyə hücumlar edib, kütləvi qırğınlar törətmişdilər. Bu qırğınlar 1918-ci ilin martında türk qoşunlarının Ərzurumu azad etməsindən sonra daha da şiddətlənmişdir. Türk ordusunun önündən geri çəkilən erməni «könüllü» birlikləri türk kəndlərini yandırıb əhalisini soyqırıma məruz qoymuşdular. Qırğınlar türk qoşunlarının Gümrü şəhərini azad etməsinədək davam etmişdir.

1918-ci ildə imzalanan Brest-Litovsk müqaviləsinə əsasən Üç Sancaqda plebisit (rəy sorğusu) keçirmək qərara alınmış və iyunun 12-də keçirilən plebistin nəticələrinə görə, bölgələrin əhalisi, o cümlədən də Ağbaba nahiyəsinin əhalisi yenidən Türkiyəyə birləşmək arzusunu ifadə etmişdir. Səsvermənin nəticələrini İstanbula təqdim etmək üçün bölgələrin təmsilçilərindən ibarət nümayəndə heyəti göndərilir. Həmin heyətdə Ağbabanı Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağa təmsil edir. Heyət avqustun 15-də VI Sultan Vahidəddin tərəfindən hörmətlə qəbul

edilir. Brest-Litovsk müqaviləsinin imzalanmasından sonra bütövlükdə Qars vilayətində olduğu kimi, Ağbabada da qaçqın əhali də öz yerlərinə qayıdır.

Türkiyənin Birinci Dünya Müharibəsində məğlubiyyəti nəticəsində bağlanan Mudros sazişinin (30 oktyabr 1918-ci il) şərtlərinə əsasən türk qoşunları 1914-cü il sərhədlərinə geri çəkilməli olur, bölgəyə ingilis qoşunları nəzarət edirlər. Lakin Sovet Rusiyasının 29 dekabr 1917-ci il tarixli «Türkiyə Ermənistanı haqqında dekret»inə əsaslanan ermənilər həmin ərazilərə sahib çıxmaq istəyirdilər. Bunun qarşısını almaq üçün 1918-ci il noyabrın 5-də Qars İslam Şurası yaradılır. Şuranın sədri Borçalının Kəpənəkçi kəndindən olan Emin ağa seçilir. Noyabrın 15-də I Qars konqresi keçirilir. Konqresdə Gümrü və Ağbabanı Peterburqda ali təhsil almış Vəkil Xəlilbəyoğlu Əli bəy təmsil edir. Konqresdə Fəxrəddin Ərdoğanın başçılığı ilə «Müvəqqəti heyət» seçilir. Ağbabanın Qaraçanta kəndindən Əhməd bəy Hacıyev heyətin tərkibinə daxil olur. Konqres Qafqazdan geri çəkilən türk ordusundan silah əldə etməyi və Üç Sancaq çevrəsində Qars İslam Şurasının şöbələrini açmağı qərara alır. Həmin ərəfədə, yəni oktyabrın 20-də Axıskada Müvəqqət Hökuməti və noyabrın 3-də Naxçıvanda Araz-Türk hökuməti qurulmuşdu. Noyabrın 30-da keçirilən II Qars konqresinə qədər Ağbaba Milli Şurası təşkil edildi. Ağababanın Köhnə İbiş kəndindən olan Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd ağa şuranın sədri və konqresə nümayəndə seçildi. Şuranın tərkibi 7 nəfərdən - Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd ağa, onun qardaşları Mahmud və Əsəd ağalar, Babaş ağa Bayramoğlu, Haşım Ağbaba, Xəlil Vəli oğlu Budaq və İbişli Həmzə ağadan ibarət idi.

Üç gün davam edən II Qars konqresində Batumdan Naxçıvanadək əraziləri birləşdirən Qars İslam Şurası Hökuməti qurulur. Hökumətin rəisi əslən gümrülü İbrahim bəy Cahangirzadə seçilir. Parlament funksiyasını icra edən 12 nəfərdən ibarət Mərkəzi Müməssələr Heyətinin tərkibinə Ağbabadan Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd ağa və qarançantalı Əhməd bəy Hacıyev daxil olurlar. Ağbaba Şurası bölgə əhalisini erməni hücumlarından qorumaq üçün yerli səfərbərlik keçirir və Ağbaba süvari alayını təşkil edir. Belə qayda qoyulubmuş ki, əsgər verə bilməyən ailələr bir tüfəngin pulunu və bir at, yaxud bir inək verməli idilər. Bu qaydaya əməl etməyənlər ciddi cəzalandırılmışlar.

1914-cü il Rusiya-Türkiyə sərhəddinə doğru geri çəkilən türk ordusunun zabiti yüzbaşı Xurşud bəy Ağbabada qalıb, könüllü dəstələrin təlimi vəzifəsini öz üzərinə götürmüş, onları erməni qoşunlarına qarşı mücadilə edəcək bir səviyyəyə çatdırmışdır.

1919-cu il yanvarın 17-18-də 141 nümayəndənin iştirak etdiyi III Qars konqresi hökumətin adını dəyişdirərək Cənubi Qərbi Qafqaz Hökuməti Müvakkati Milliyəsi adlandırmış, onun Anayasası (Konstitusiya) qəbul edilmişdir. Bu arada ermənilər ara-sıra Ağbabanın Gümrüyə yaxın olan aran kəndlərinə hücumlar edirdilər. Yanvarın 21-də Arpaçayın qərbinə (yəni Ağbabaya) keçməyi bacarmayan ermənilər Gümrü ətrafındakı kəndlərə hücumlar edib, xalqın hər cür

ərzaq və mülkünü talan edib, əhalisini ucdantutma güllələmişdilər. Cənubi-Qərbi Qafqaz hökuməti 1919-cu il yanvarın 27-də Azərbaycan hökumətinə müraciət etmiş, ondan bölgə əhalisinə hərbi təlimlər keçmək üçün zabitlər, silah-sursat almaq üçün pul istəmişdi.

Cənubi-Qərbi Qafqaz Hökumətinin xarici işlər naziri olmuş Fəxrəddin Ərdoğan xatirələrində yazır ki, ermənilərin alayları və topları ilə türk köyləri üzərinə yürüdüklərini görən Çıldırdan Qoca oğlu Məhəmməd bəylə doktor Əsəd bəy və Ağbabadan Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd Axılkələyə gələrək, Borçalı yolu ilə Bakıya getdilər, yardım üçün Azərbaycan hökumətindən əsgəri qüvvə istədilər. Azərbaycan hökumətinin bir tümən (min) əsgəri qüvvəsini Gürcüstan ərazisindən Qarsın bölgələrinə göndərilməsinə gürcülər icazə vermədilər. Əvəzində Bakıdan, albay (polkovnik) İsmayıl bəy Yadigarov, Yusif Kənan bəy, İsmayıl bəy Nəzərəliyevlə birlikdə xeyli Azərbaycan parası götürərək, Ağbabaya gəldilər, oradan da Çıldıra keçdilər.

Azərbaycan hökumətinin Ağbabaya göstərdiyi kömək haqqında başqa bir sənəddə deyilir: «İngilislərdən maddi və mənəvi kömək alan ermənilər getdikcə Qarsda qırğın və zülmlərini artırırdılar. Bu səbəbdən çoxlu məhrumiyyətlərə məruz qalan Şörəyel kəndlərindən İran yolu ilə Azərbaycan Demokratik Cümhuriyyətinə qaçaraq yardım istəyənlər olmuşdu. Mərkəzi Bakıdan, könüllü silahlı dəstələrini çoxaltsın deyə, əlaltından bir diplomatik nümayəndənin gətirdiyi heybədə bir neçə min altun (qızıl) Ağbabada qəhrəman mücahid Hacı Abbas oğlu Məhəmməd bəyə «yardım» olaraq göndərmişdilər.

1919-cu il martın 25-də Cənubi Qərbi Qafqaz Hökuməti öz müstəqilliyini elan edir və özünü Cənubi-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti adlandırır.

İngilislərin 1919-cu il aprelin 12-də CQQDR-i süquta yetirməsindən bir neçə gün sonra Gümrüdən general Osipyanın komandanlığı altında daşnak hökumətinin Qars valisi təyin etdiyi Korqanovla birlikdə respublikanın sərhədlərinə daxil oldular. İngilislər CQQDR-in parlament və hökumət üzvlərini həbs edib, onlardan 11 nəfərini Malta adasına sürgün edirlər. Aprelin 19-da İngilislərin müşayiəti ilə Qarsa daxil olan Korqanovu yerli əhali rədd edir. Nəhayət, aprelin 30-da daşnak hökuməti Qarsda öz fəaliyyətinə başlayır və bölgələrdə qəza təşkilatlarını qurmaq üçün öz nümayəndələrini yerlərə göndərir. F.Ərdoğan xatirələrində yazır: «Çıldırda doktor Əsəd bəy, Arpaçayın quzey bölgəsində Qocaoğlu Məhəmməd bəy əllərindəki qüvvətlərini gecə-gündüz çalışıb yerləşdirdikdən sonra, bura ermənilərin girməsinə mane olurlar. Ermənilər də burada qəza təşkilatlarını qurmaq üçün alay komandanı Marzmanovun idarəsindən iki top, səkkiz ağır makinalı tüfənglə bu qüvvətlər üzərinə hücuma başladı. Milli qüvvətlərimiz birləşərək Marzmanova qarşı vuruşur və onu geri çəkilməyə məcbur edirlər».

Daha sonra F.Ərdoğan yazır ki, milli təşkilatlarımız erməniləri elə sıxışdırmışdı ki, onlar «Böyük Ermənistan» xülyasından əl çəkib, kiçik

qəzalarımızla barışıq əldə etmək məcburiyyətində qalmışdılar. Ağbaba və Çıldır Milli Şuraları ilə 8 maddəlik müqaviləni Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd bəy və Qocaoğlu Məhəmməd bəy imzalamışdılar. Müqavilənin şərtləri belə idi:

1. Arpaçay, Çıldır və Ağbaba qəzalarına ermənilər məmur göndərməyəcək.
2. Bu qəzaların xalqından əsgər istəməyəcəklər.
3. Tacirlər türk parası ilə sərbəstcə alış-veriş yapacaqlar.
4. Bu qəzaların xalqı Gümrüdən istədikləri üç nəfəri girov alacaqlar.
5. Ermənilər bu müqaviləyə əməl edilməsi üçün üç nəfəri girov alacaqlar.
6. Bu girovlar Hacı Abbas oğlu Mahmud, Əhməd oğlu Murtaza və İsgəndər ağalar olacaqlar.
7. Bunun müqabilində 3 erməni taciri Bağdasarov, Arslanov və Ağasi girov olaraq türklərə veriləcək.
8. Bu müqaviləyə hər iki tərəf riayət edəcək.

F. Ərdoğanın yazdığına görə bu müqaviləyə 1920-ci ilin oktyabr ayının 30-dək əməl edilmişdir. Qarsın türk qoşunları tərəfindən azad edilməsini eşidən Gümrü valisi Qaroyan Çıldır və Ağbaba Milli Şuraları ilə bağlanan müqaviləyə əsasən Gümrüdə girov saxlanan üç nəfəri yanına çağıraraq: «Artıq türk ordusu gəlir, sizinlə bizim aramızda düşmənçilik ediləcək bir məsələ qalmadı, qüvvət türklərin əlindədir» - demiş və 8 atlı ilə onları Ağbabaya göndərmiş, bunun müqabilində üç erməni girovunu Gümrüyə gətirmişdilər.

Lakin digər mənbələr göstərir ki, ermənilər heç də bu sazişə əməl etməmişdilər. Xüsusən, 1919-cu ilin axırı, 1920-ci ilin yanvar-fevral aylarında ermənilər dəfələrlə Ağbaba və Çıldıra hücuma keçmişdilər. 1921-ci ildə Kazım Qarabəkir paşanın dərc etdiyi «1919 və 1920-də Kafkazda İslamlara karşı yapılan Erməni Mezalimi» kitabında göstərilir: «Ermənilər Ağbaba bucağına 1919-cu ilin sonlarından başlayır, 1920-ci il içində lap çox zərər və ziyan verərək: bir çox köyləri yandıraraq, əhalisini Gürcüstana qaçıb sığınmaya və Türkiyəyə köçməyə zorlamışdılar». Daha sonra Kazım Qarabəkir paşa yazır: «1920-ci il yanvarın 26-da erməni komandalarından Baratov və Marzmanovun top və tüfənglərlə silahlanmış əsgərləri Şörəyelin əksər kəndlərini viran qoyduğu kimi, Ağbabanın da Gümrüyə yaxın aran kəndlərindən - Orçoğluda 150, Qaraməmməddə 20, kiçik Qızıldaşda 100, Qaraçantada 150, Güllübulaqda 300 İslam evini yandırıb mallarını və əşyalarını qarət edib, əhalisindən çoxunu qırıb, öldürmüşdülər». Ağbaba nahiyəsinin dağlıq hissəsi Qars vilayətində yeganə bölgə idi ki, ermənilər axıradək ora girə bilməmişdilər. Ona görə də İrəvan quberniyasından 25 mindən artıq qaçqın Ağbaba və qonşu Zərdaş nahiyələrinə sığınmışdılar. Lakin ərzaq və dava-dərman çatışmadığından və tif xəstəliyindən hər gün azı 40-50 nəfər ölmüşdü. Beləliklə, Ağbaba Milli Şurasının gecəli-gündüzlü gərgin əməyi nəticəsində Ağbabanın dağ kəndləri erməni qırğınlarından xilas ola bilmişdi. Türk qoşunları 1920-ci ilin oktyabrında Qarsı azad etdikdən sonra Hacı Abbas oğlu Kərbəlayi Məhəmməd ağanın 700 nəfərlik süvari alayı 9-cu türk diviziyasının tərkibinə qatılaraq

Gümrünün azad edilməsində iştirak etmiş və hərbin sonunda ön cəbhədə vuruşmuşdu.

1921-ci il Moskva və Qars müqavilələrinə əsasən Türkiyə tərəfi Arpaçay rayonunda blokhauzlar (çöldə tikilən hərbi istehkamlar) Gümrü-İrəvan dəmir yol xəttindən 8 verst (1 verst=l,7 km) məsafədən geri çəkildiyindən və sərhəd xətti Ağbaba dağlarından müəyyən edildiyindən Ağbabanın Köhnə İbiş, Bəzigan, Dələver, Köhnə Qızıldaş, Cəbəci kəndləri Türkiyə tərəfdə qalmış, qalan ərazilər Ermənistana qatılmışdı. Ağbaba nahiyəsinin 594,75 kv. verst ərazisindən 450 kv. verst ərazisi Ermənistana birləşdirilmişdir. Qars müqaviləsinin 13-cü maddəsinə əsasən Ermənistanın təbəəliyini qəbul etməyən əhaliyə 6 ay müddətində köçməyə icazə verilmişdi. Bundan sonra Ağbabanın Sınız, Mumuxan, Təzə Qızıldaş, Mustuqlu, Baxçalı, Söyüdlü, Seldağılan, Ördəkli, Baxçalı kəndlərinin türkləri elliklə Türkiyəyə köçmüşdülər.

Erməni mətbuatı CQQR-in və milli şuraların fəaliyyətini olduqca səthi və yanlış işıqlandırmışdır. Onlar qeyd edirlər ki, guya «bir neçə həftə mövcud olan» Qars Müsəlman Respublikasını ingilislər qurmuşdular.

Türkiyə mətbuatında da Ağbaba Şurasının fəaliyyəti ilə bağlı bəzi yanlışlıqlara yol verilmişdir. Esin Dayı «Elviye-Selasede Milli Təşkilatlanma» doktorluq işində Y.Haşımoğlunun xatirələrinə əsaslanaraq göstərir ki, Ağbaba Milli Şurası Cənubi-Qərbi Qafqaz hökuməti dağıldıqdan sonra Ağbabaya gedən Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd bəy tərəfindən qurulmuşdur. Lakin həqiqətdə isə Kərbəlayı Məhəmməd ağa ömrü boyu Ağbabada yaşamış, Ağbabanın Rusiyanın tərkibində olduğu dövrdə Təpəköy dairəsinin rəisi olmuşdu. 1921-ci il sərhəd kəsimindən sonra o, doğulduğu Köhnə İbiş kəndindən köçüb Türkiyə tərəfində qalan Bəzigah kəndinə getmiş və ömrünün sonunadək orada yaşamışdı. Ümumiyyətlə, XX əsrin əvvəllərində tariximizə parlaq qəhrəmanlıq səhifələri yazmış milli şuraların fəaliyyəti araşdırılmamışdır».

Nazim Mustafanın bu qeydlərindən həmin dövrün nə dərəcə mürəkkəb bir zaman kəsiyi olduğu aydın görünür. Bir çoxları Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadəni və onun silahdaşlarını qınayaraq deyir ki, onlar o zaman gərək indiki Ermənistan adlanan türk torpaqlarını, xüsusən də qədim şəhərimiz İrəvanı ermənilərə verməyəydi. Bəs əslində o zaman vəziyyət necə idi?

Bolşeviklərlə Almaniya arasında bağlamış Brest-Litovsk sülhü /1918-ci 27 avqust/ Azərbaycanın varlığının üstündən qara bir xətt çəkmişdi. Bakı neftinin dörddə birini Almaniyaya verməklə Lenin həm almanlardan canını qurtarırdı, həm də Azərbaycanın müstəqilliyini tanımırdı. Qonşu Gürcüstanın müstəqilliyini tanıyan Almaniya Leninlə əlbir olub Azərbaycanı yenidən bölüşdürmək istəyirdi. Hamısı da neftin ucbatından!

Özü də ən pisi o idi ki, həmin bədnam müqavilə üçüncü dövlətin - /əslində Osmanlı dövlətinin/ qoşununun Qafqazda, daha çox isə Azərbaycanda olmasına

imkan vermirdi. Bu isə o demək idi ki, gah Rusiyanın, gah ingilislərin ətəyindən yapışan silahlı ermənilərlə Azərbaycan xalqı əliyalın vəziyyətdə üz-üzə qalacaqdı. Şaumyan isə hər gün Leninə teleqram göndərir, bolşevik ordusunu Bakıya çağırırdı. Beləcə, yenicə müstəqilliyini elan eləmiş Azərbaycan Respublikasının taleyi tükdən asılı vəziyyətdə idi.

Azərbaycan Milli Şurası adından bəyanat yazıb İstanbuldakı Almaniya böyük elçiliyinə gedən M.Ə.Rəsulzadə Almaniyanı yeni müzakirə açmağa dəvət etdi. Türkiyə hökuməti də Almaniyaya ciddi-cəhdlə təsir edirdi.

Azərbaycanla Türkiyə hökuməti arasında Batum müqaviləsinin imzalanması gənc Azərbaycan Respublikasının taleyində mühüm rol oynadı. Azərbaycanı qəsbkarlardan təmizləmək üçün başda Nuru paşa olmaqla türk qoşunu Azərbaycana yaxınlaşırdı. Bakıda isə bir tərəfdə Şaumyanın daşnak-bolşevik hökuməti, bir tərəfdə oyuncaq Sentorkaspi hökuməti at oynadırdılar. Bütün bunlara baxmayaraq müzəffər türk ordusu Bakıya çatmaq üzrə idi. Sentyabrın 15-də Qafqaz-Müsəlman ordusunun komandanı general-leytenant Nuru paşa Gəncəyə - Müstəqil Azərbaycan hökumətinin başçılarına xoş bir müjdəli teleqram göndərdi:

«Allahın köməyi ilə Bakı şəhəri saat 9-un yarısında bizim qoşunlar tərəfindən alındı».

İstanbuldakı beynəlxalq konfransda diplomatik döyüşlər aparan Azərbaycanın nümayəndə heyəti nəhayət ki, Ənvər paşanın yaxından köməyi ilə Almaniyanı Azərbaycanın müstəqilliyini tanımağa razı sala bilir.

Elə buradaca Ənvər və Nuru Paşa qardaşlarının xalqımız qarşısında tarixi xidmətlərini nəzərə alıb onlar haqqında bilgiləri də kitaba çatmaq qərarına gəldik.

**Ənvər Paşa, Killiqli** (1880, İstanbul - 4.8.1922, Tacikistan) - Türkiyənin görkəmli dövlət xadimi, Osmanlı dövlətinin hərbi naziri; 1918-ci ildə erməni-daşnakların soyqırımına məruz qalmış Azərbaycan xalqına hərbi yardım göstərilməsinin əsas təşkilatçılarından biri. Birinci dünya müharibəsində (1914-18) Böyük dövlətlərin Osmanlı imperiyasını bölüşdürmək siyasətini həyata keçirməkdə olduğu mürəkkəb tarixi şəraitdə Böyük Turan imperatorluğu yaratmaq ideyasını irəli sürmüş və əqidəsi yolunda şəhid düşmüşdür. İstanbulda hərbi təhsil almışdır. 1903-cü ildə kapitan, 1907-ci ildə mayor, 1913-cü ildə qayməqam, 1914-cü ildə polkovnik, elə həmin ildə - 34 yaşında ikən general-mayor, 1916-cı ildə isə general-leytenant rütbəsi almışdı. Osmanlı ordusunun Baş qərargah rəisi (1914), Osmanlı ordusu Baş komandanının müavini (1915), Osmanlı sultanının xüsusi yavəri (1916), hərbi nazir (1917) və Baş komandan müavini təyin edilmişdi. «İttihad və tərəqqi» partiyasının liderlərindən biri, türk xalqlarının mənəvi-siyasi birliyi ideyasının - turançılığın fəal tərəfdarlarından idi. Fevral inqilabı (1917) nəticəsində Romanovlar mütləqiyyətinin devrilməsindən sonra Rusiya ərazisindəki türk xalqlarının milli-azadlıq hərəkatının güclənməsi Ənvər paşada turançılıq ideyalarının reallaşmasına ümidi artırdı. Rusiyanın türk-müsəlman xalqlarının, o cümlədən, Azərbaycan xalqının həyatında baş verən ictimai-siyasi prosesləri

yaxından izləyirdi. 1917-ci ilin sonlarında Qafqaz cəbhəsində və Cənubi Qafqazdakı hadisələr haqqında aldığı məlumatlardan sonra Ənvər paşada Rusiyanın müsəlman xalqlarına, o cümlədən, Azərbaycan türklərinə konkret hərbi-siyasi kömək göstərmək meyli gücləndi. Ənvər paşa ilk vaxtlar qardaşı Nuru paşanın rəhbərliyi ilə Tehranda xüsusi bir qurum yaratmaq və həmin qurum vasitəsilə Azərbaycan, Dağıstan, Türküstan və hətta Əfqanıstanda cərəyan edən proseslərə fəal təsir göstənnək niyyətində idi. Bu planı bütünlüklə reallaşdıra bilməsə də, Qafqaz İslam Ordusunun yaradılması ilə Azərbaycan və Dağıstandakı milli azadlıq hərəkatını dəstəkləməyə müvəffəq oldu. Ənvər paşa Qafqaz İslam Ordusu adı altında türk zabitlərinin rəhbərliyi və iştirakı ilə Azərbaycanda üç piyada diviziyadan ibarət hərbi korpus yaradılmasını planlaşdırırdı. 1918-ci ilin əvvəllərində Nağı Şeyxzamanlının başçılığı altında Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə görüşdükdən sonra Ənvər paşa, qəti olaraq, Azərbaycan türklərinə hərbi yardım göstərmək qərarına gəldi. Həmin qərarın uğurla həyata keçirilməsinə, Azərbaycan türklərinin böyük ümid bəslədiyi hərbi yardımın vaxtında və yetərincə çatdırılmasına qətiyyətlə girişən Ənvər paşa bu mühüm və çətin vəzifəni yerinə yetirəcək zabitlərin seçilməsinə də xüsusi diqqət yetirirdi. Qəbul olunmuş qərara əsasən, Azərbaycana göndəriləcək zabitlərin rütbəsi bir pillə artırılmalı və onlara ikiqat əmək haqqı verilməli idi.

Ənvər paşa Qafqaz İslam Ordusuna kimin başçılıq edəcəyinə də böyük əhəmiyyət verirdi. Bu vəzifəyə başqa namizədlərin də olmasına baxmayaraq, Ənvər paşa Qafqaz İslam Ordusu komandanı vəzifəsini qardaşı Nuru paşaya etibar etmişdi. Qafqaz İslam Ordusunun struktur baxımından tabe olduğu Şərq ordular qrupunun komandanı vəzifəsinə isə Ənvər paşanın yaxın qohumu Xəlil paşa təyin edildi. Bununla o, Azərbaycan türklərinə hərbi yardım göstərilməsini özünün daha çox etibar etdiyi yaxın qohumlarına həvalə etdi. 1918-ci il aprelin 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkil olunması və onun qarşısında duran vəzifələrə dair təlimnaməni təsdiqlədi. Bu təlimnamədə Qafqaz İslam Ordusunun təşkili prinsipləri və onun qarşısında duran vəzifələr konkret olaraq müəyyənləşdirilirdi.

Nuru paşa Gəncəyə yetişdikdən sonra aydın oldu ki, Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş Bakı Soveti qoşunlarının artıq Gəncə istiqamətində başladıqları hücum əməliyyatının qarşısını almaq üçün yerli qüvvələrdən qısa müddətdə güclü ordu yaratmaq mümkün olmayacaqdır. Odur ki, Nuru paşa Türkiyə rəhbərliyi, o cümlədən Ənvər paşa qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırdı. 1918-ci il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Ənvər paşa Azərbaycana hərbi qüvvələr göndərilməsinə dair göstəriş verdi.

Türk hərbi qüvvələri və Azərbaycan milli qoşun hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun təchizatını, fəaliyyətini daim nəzarət altında saxlayan Ənvər paşa Azərbaycana hərbi yardım göstərilməsinin dayandırılmasını tələb edən

Almaniyanın ciddi təzyiqi ilə üzləşdi. Osmanlı dövlətinin müttəfiqi olan Almaniya Türkiyənin Azərbaycana hərbi yardım göstərməsinə qəti etirazını bildirdi. 1918-ci il iyulun sonu - avqustun əvvəllərində Almaniya hərbçiləri Qafqaz İslam Ordusu hissələrinin Bakıya doğru irəliləməsinin və Bakı neftinin Osmanlı hökumətinin nəzarəti altına keçməsinin qarşısını almaq üçün Ənvər paşa qarşısında sərt tələblər qoydular. Almaniyanın tələbinə görə, türk hərbi hissələri Bakıya doğru hücumu dayandırmalı və geri çəkilməli idi. Əks təqdirdə, türk ordusunda xidmət edən alman zabitləri geri çağırılmalı və Almaniya türk, hərbi hissələrinin Bakıya doğru irəliləməsinin qarşısını almaq üçün konkret tədbirlər həyata keçirilməli idi. Odur ki, Ənvər paşa türk ordusunda kifayət qədər yüksək vəzifələrdə olan alman zabitlərinin diqqətini Bakını azad etmək əməliyyatından yayındırmaq üçün, rəsmi olaraq, 1918-ci il avqustun 4-də 3-cü ordu komandanına göndərdiyi məktubunda yazırdı: «Nuru paşaya çatdırılması lazımdır: əmri qəti təkrar edirəm ki, Bakıya heç bir surətlə tərəfimizdən düçari-təərrüz (hücum) olmayacaqdır. Bundan başqa hansı çətə (silahlı dəstə) olursa-olsun və haradan gəlirsə-gəlsinlər Bakıya qarşı heç kimsənin irəliləməməsi haqda təkmili-nüfuzunuzu istemal etməlisiniz...» Bununla alman hərbçilərini duyuq düşməyə qoymayan Ənvər paşa, eyni zamanda, Nuru paşanın yanına şəxsi nümayəndəsini göndərib tələb etdi ki, rəsmi məktublara fikir verməsin və Bakının azad olunmasını tezliklə başa çatdırsın. Bundan əlavə, Ənvər paşa Bakının azad olunması əməliyyatını qələbə ilə başa çatdırmaq üçün 15-ci türk diviziyasının da Azərbaycana göndərilməsinə nail oldu.

Ənvər paşanın Bakının azad edilməsinə nə qədər böyük önəm verdiyi onun Nuru paşaya göndərdiyi teleqramdan da aydın görünür: «Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və mutluluqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edərim».

Bakı azad edildikdən sonra Ənvər paşa onun mühafizəsinin gücləndirilməsinə də xüsusi əhəmiyyət verirdi. 1918-ci il oktyabrın 1-də Nuru paşaya məktubunda o, Bakının dənizdən mühafizəsinin gücləndirilməsini tələb etdi. Bu məsələnin həlli və bütünlüklə Azərbaycan milli hərbi qüvvələrinin möhkəmləndirilməsi üçün, Ənvər paşanın əmri ilə, 1918-ci il oktyabrın əvvəllərində Azərbaycana çoxlu silah və sursat göndərildi. Türk hərbi qüvvələri Azərbaycanı tərk etməyə məcbur olduqda, Osmanlı dövlətinin Qafqaz siyasətinin əsas təşəbbüsçülərindən biri olan Ənvər paşa Nuru paşanın diqqətini Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə yönəltməyə çalışırdı. O, 1918-ci il oktyabrın 15-də Nuru paşaya ünvanladığı məktubunda yazırdı: «Düşmənlə... sülh yapmaq məcburiyyətinə girdim. ...Bizim vəziyyətdə Azərbaycanın istiqlalını təmin qayət mühümdür».

Birinci dünya müharibəsinin nəticələrinə əsasən, Osmanlı hökuməti istefa vermək məcburiyyətində qaldıqda, Ənvər paşa Azərbaycana gəlmək və ölkənin

müstəqilliyinin möhkəmləndirilməsinə xidmət göstərmək niyyətində idi. O, 1918-ci il oktyabrın 23-də Xəlil paşaya göndərdiyi məktubda yazırdı: «Ümumi vəziyyətin sülhə getməmizi icab etdiyini yazmışdım. Bu vəziyyətdə Azərbaycanın təşəkkülünü təmin etməyi mühüm bir vəzifə bilirəm. Əvvəla, oranın təşkilatının ikmalı üçün adam, silah, cəbbəxana ilə həmən yardım edilsin. Buradan ora 700 min lirə göndəririm. ...Başladığımız hərbi iyi bitirmədiyimiz üçün çəkilmək üzrəyiz. Mən işsiz indi sıxılacağımdan bəlkə Azərbaycana indilik səyahət üçün, bilaxərə də orada bir həyat əsəri görərsəm, büsbütün qalmaq üçün hərəkəti düşünürəm».

Müttəfiqlər tərəfindən məğlub edilmiş Osmanlı dövləti üçün təslim aktı olan Mudros barışığı (1918) imzalanandan sonra Ənvər paşanın həyatına təhlükə yarandı. Belə olduqda o, 1918-ci il noyabrın 8-də hökumətin bir neçə üzvü ilə birlikdə Azərbaycana gəlmək üçün gizlicə Türkiyəni tərk etmək məcburiyyətində qaldı. Alman gəmisi ilə Krıma gələn Ənvər paşa Şimali Qafqazda hərbi şəraitin kəskinləşməsi üzündən Azərbaycana gələ bilmədi və Moskvaya getdi. Ənvər paşa burada «İslam ihtilal cəmiyyətləri ittihadı»nı yaratdı. Bu cəmiyyətin nümayəndəsi kimi Azərbaycana gəldi və 1920-ci il sentyabrın 1-7-də Bakıda keçirilən Şərq xalqlarının qurultayında iştirak etdi. Qurultayda iştirak edən türk kommunistlərinin tələbi ilə onun çıxışına imkan verilmədikdə, Zinovyevin təklifi ilə Ənvər paşanın çıxışının mətni bolşevik Ostrovski tərəfindən oxundu.

Lakin bolşevik hökuməti ilə əməkdaşlığın onun əqidəsinə zidd olduğunu anlayan Ənvər paşa 1922-ci ildə yenidən Bakıya gəldi və buradan Türküstana keçdi. Türküstanda sovet-bolşevik işğalçılarına qarşı azadlıq mübarizəsinə qoşuldu. Ənvər paşa 1922-ci il avqustun 4-də indiki Tacikistan ərazisində, Abi-Dərya çayı kənarında bolşevik qüvvələrinə qarşı döyüşdə şəhid oldu. 20-ci əsrin 90-cı illərində onun cənazəsinin qalıqları İstanbula gətirilərək burada torpağa tapşırıldı. İndi isə Azərbaycanın müstəqilliyi tarixinə böyük töhfə verən Nuru Paşanın həyat tarixçəsinə qısaca nəzər salaq.

**Nuru Paşa** (1889, İstanbul - 1949, İstanbul) - Qafqaz İslam Ordusunun komandanı, Osmanlı ordusunun general-leytenantı. 1934-cü ildən etibarən Killigli soyadını götürmüşdür. İlk təhsilini başa vurduqdan sonra 1906-cı ildə quru qoşunları məktəbinə daxil olmuş, 1909-cu ildə həmin məktəbi bitirərək, zabit kimi xidmətə başlamışdı. 1913-cü ildə yüzbaşı, 1916-cı ildə minbaşı, 1918-ci ildə isə yarbay rütbələri almışdı. Birinci dünya müharibəsi (1914-18) illərində Şimali Afrikada olan Osmanlı ordusunda xidmət edirdi. O, Liviya ərazisində cəbhə komandanı idi. Elə buradakı xidməti dövründə Nuru paşa özünün hərbi istedada malik olduğunu nümayiş etdirmişdi. Liviya cəbhəsində göstərdiyi igidliklərə görə Nuru paşa minbaşı rütbəsinə, 1916-cı ildə «Altun ləyaqət» medalına, Almaniyanın Dəmir xaç medalına, 1917-ci ildə «Altun imtiyaz» medalına, habelə Avstriya-Macarıstan dövlətinin üçüncü dərəcəli fərqlənmə nişanına layiq görülmüşdü. Trablus qərb cəbhəsində göstərdiyi şücaətə görə, Nuru paşa Trablus qərb qəhrəmanı kimi də tanınır.

Nuru paşanın hərbi xidmətinin ən mühüm dövrü Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlıdır. Bu ordunun yaradılması 1918-ci ilin əvvəllərində reallaşmağa başladı. Azərbaycanda bolşevik-daşnak rejiminin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımları dayandırmaq məqsədilə milli azadlıq hərəkatı fəallarının kömək üçün Osmanlı dövlətinə müraciətindən sonra Qafqaz İslam Ordusu yaradılması qərara alınmışdı. Türkiyənin hərbi naziri Ənvər paşa Azərbaycana yardım göstərilməsinin əsas təşkilatçısı idi. İlk qərara əsasən, Azərbaycana göndəriləcək türk zabitlərinin rəhbərliyi və iştirakı ilə yerli milli qüvvələrdən ordu formalaşdırılmalı idi. Azərbaycana göstəriləcək hərbi yardıma rəhbərlik Nuru paşaya tapşırıldı. Vəzifəsinin icrasına başlamazdan əvvəl Nuru paşaya fəriq (general-leytenant) hərbi rütbəsi, bütün Qafqaz İslam Ordusu hissələrinə komandanlıq vəkaləti, Qafqazda Türkiyə sultanının siyasətini təmsil etmək hüququ verildi.

Nuru paşa 1918-ci il martın 2-ci yarısında 20 nəfərlik bir heyətlə Azərbaycana doğru hərəkətə başladı. Martın 25-də onun heyəti Mosul şəhərinə çatdı. Aprelin əvvəllərində Nuru paşa öz heyəti ilə birlikdə Mosul-Təbriz-Naxçıvan-Qarabağ-Yevlax-Gəncə yolu ilə Azərbaycana doğru istiqamət götürdü. 1918-ci il mayın 24-də Yevlaxda, mayın 25-də isə Gəncədə Nuru paşanın qarşılanması mərasimi keçirildi. O, Azərbaycandakı hərbi-siyasi vəziyyətlə tanış olduqdan sonra bolşevik-daşnak qüvvələrinin müqavimətini qırmaq üçün, qısa müddət ərzində, milli hərbi struktur formalaşdırılmasının qeyri-mümkün olması qənaətinə gəldi. Bu barədə o, 3-cü ordu komandanı Vehib paşaya təcili məlumat göndərdi və dövlət orqanları qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırmasını xahiş etdi. 1918-ci il iyunun 4-də Batumda iki dövlət arasında imzalanan müqavilədən sonra Nuru paşanın vəsadəti əsasında 5-ci Qafqaz firqəsi Azərbaycana göndərildi. Nuru paşa türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun komandanı olmaqla bərabər, Azərbaycan hökumətinin qərarı əsasında milli hərbi hissələrin formalaşdırılmasına rəhbərliyi də öz üzərinə götürdü. Onun qarşısında Bakı Sovetinə tabe olan bolşevik-daşnak hərbi qüvvələrinə, erməni silahlı dəstələrinə qarşı mübarizəni təşkil etmək, Azərbaycanın milli hərbi hissələrinin formalaşdırılmasına nail olmaq, Qafqaz İslam Ordusunun komandanlığı altında olan qüvvələrin təchizat və təminat məsələlərini həll etmək kimi mürəkkəb vəzifələr dururdu. İncə və çevik hərbi duyuma malik olan Nuru paşa ona həvalə olunmuş hərbi vəzifələrin öhdəsindən bacarıqla gəldi, Azərbaycan hökumətinin və xalqın dəstəyi ilə onun komandanlığı altında olan hərbi qüvvələr qısa vaxt ərzində Gəncədən Bakıya qədər uğurlu döyüş yolu keçdilər.

Döyüşlərin getdiyi müddətdə Nuru paşa Əlahiddə Azərbaycan korpusunun komandiri Əlağa Şıxlinski ilə birlikdə üç dəfə birbaşa cəbhə xəttində olmuşdu – 1918-ci il iyunun 18-də Qaraməryəm cəbhəsində, iyulun 5-də Ağsu cəbhəsində, sentyabrın 10-da isə Bakı cəbhəsində olan Nuru paşanın qüvvələrin yenidən

səfərbərliyə alınmasında, döyüş planlarının taktiki baxımdan təkmilləşdirilməsində böyük rolu oldu.

Bakının azad olunması (1918) üçün keçirilən həlledici hücumun planı Nuru paşa tərəfindən hazırlanmışdı. Şəhərin azad edilməsindən sonra Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə bildirmişdi: «...Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim».

Qarabağın erməni silahlı dəstələrindən təmizlənməsinə başlanmazdan əvvəl də, 1918-ci il oktyabrın 1-də Nuru paşa Ağdama gəldi, döyüşlərə hazırlaşan türk-Azərbaycan hərbi qüvvələrinin vəziyyəti ilə yaxından tanış oldu.

Mudros barışığının (1918) şərtlərinə əsasən türk hərbi qüvvələri bölgəni tərk etməyə məcbur olduqda Nuru paşa Azərbaycanda qalıb fəaliyyətini davam etdirmək istəyirdi. Ancaq ingilis hərbi komandanlığı buna imkan vermədi. Azərbaycanı tərk etməli olan Nuru paşa 1918-ci il noyabrın sonlarında Gəncəyə gəldi. Noyabrın 29-da Gəncə bələdiyyəsində Nuru paşa və xidmət yoldaşlarının yola salınması ilə bağlı ziyafət verildi. Nuru paşa türkçülük və turançılıqla bağlı geniş nitq söylədi.

Nuru paşa Batum-Artvin-Ərdəhan-Qars-Ərzurum-Trabzon yolu ilə İstanbula qayıtdı. İngilislər tərəfindən təqibə məruz qalan Nuru paşa Hərbi Nazirliyin polisləri tərəfindən həbs edilib ingilislərə təhvil verildi. O, Batum həbsxanasına gətirildi. İngilislər onlara qarşı vuruşduğuna və Azərbaycanda göstərdiyi hərbi şücaətlərinə görə Nuru paşanın edamına qərar verdilər. Azərbaycan milli azadlıq hərəkatının fəalları Nurunun rəsmi yolla azad edilməsinin mümkün olmadığını biləndə Batum həbsxanasına silahlı basqın təşkil edilməsini qərarlaşdırdılar. Bunun üçün Batuma xüsusi dəstə göndərildi. 1919-cu ilin yayında həmin dəstə Batum həbsxanasına basqın etdi. Əməliyyat zamanı itki verilsə də, Nuru paşanı azad etmək mümkün oldu. O, Artvin-Sarıqamış yolu ilə Ərzuruma gəlsə də, bir müddət sonra Bakıya qayıtdı. 1920-ci ilin aprelində Sovet qüvvələrinin Azərbaycana təcavüzü ərəfəsində Nuru paşa Dağıstan ərazisində fəaliyyət göstərir, yerli milli müqavimət qüvvələrinin yaradılmasına çalışırdı. Sonra yenidən Azərbaycana dönən Nuru paşa 1920-ci ilin iyununda Qarabağda bolşevik rejiminə qarşı alovlanan xalq üsyanının rəhbərlərindən biri oldu. Üsyan yatırıldıqdan sonra isə Nuru paşa Türkiyəyə döndü.

Hərbi xidmətdən ayrılandan sonra Nuru paşa İstanbulda dəmir-tökmə fabriki açdı. Bir sıra digər məhsullarla bərabər bu fabrikdə hərbi təyinatlı məhsulların da istehsalı mənimsənildi. 1949-cu il martın 2-də fabrikdə naməlum səbəblər üzündən baş vermiş partlayış nəticəsində həlak olmuşdur.

Artıq deyildiyi kimi cəbhədəki məğlubiyyətə rəğmən Türk ordusu bir az sonra Azərbaycanı tərk edir və noyabrın 17-də ingilis generalı Tomson başda olmaqla ingilis ordusu Bakıya daxil olur. Bir yandan da daxili satqınlarımız bolşevikləri Bakıya çağırırdılar. Beləcə Azərbaycan Demokratik Cümhuriyyətinin özü təhlükə qarşısında ola-ola arxalarında ingilisin, rusun dayandığı ermənilərlə bir neçə cəbhədə vuruşa bilməzdi. Bir qədər sonra isə bolşeviklər gənc müstəqil respublikamızı devirdilər və üstəlik Zəngəzuru da ermənilərə verməklə dayanmayıb Azərbaycanın bətnində gələcəyin daşnak ocağını - Dağlıq Qarabağ Muxtar Vilayətini yaratdılar.

Bir həqiqəti bilmək lazımdır ki, istər cümhuriyyət dövründəki müstəqil dövlətimizin ordusu, istərsə də özünümüdafiə dəstələri ermənilərin vəhşiliklərinə layiqli cavab vermiş, onların azğınlaşmasının qarşısını alaraq əhalimizin təhlükəsizliyini təmin etmişlər. Belə qeyrətli ziyalılardan, el qəhrəmanlarından biri Zəngəzurun igid oğlu Sultan bəy idi. Sultan bəy Zəngəzurda böyük hörmət və izzət sahibi Paşa bəyin oğludur. Paşa bəy oğlanları Sultan bəylə Xosrov bəyi vətəninə layiq övlad kimi yetişdirmişdir. Sultan bəy bir bacarıqlı hərbçi, Xosrov bəy isə həkim kimi kamil təhsil alaraq elinə-obasına xidmət etmişdir.

Böyük təsərrüfatı və var-dövləti olan Sultan bəyin çevik süvari dəstəsi vardı. Türk ordusunun sirrini ingilislərə satdığına görə qulağı kəsilərək Türkiyədən qovulmuş Andranik Uzanyan dəstələr düzəldib türk kəndlərinə hücumlar təşkil edir, insanların var-dövlətini əlindən alırdı. Onlar tutduqları türk kəndlərində insanlara olmazın işgəncələrini verirdilər. Onlar uşaqları tonqallarda yandırır, boylu qadınların qarnına xəncər soxur, adamların başına paslı mismar vurur, kürəyinə qaynar samovar bağlayır, qız və qadınların üzlərinə xaç şəkli çəkirdilər.

Lakin Andronikin qarşısında Sultan bəy kimi bir zəka və qüdrət sahibi var idi. Buna görə də o, Sultan bəydən Qarabağa keçmək üçün izn istəyir. Şuşa quberniyasında işləyən qardaşı general Xosrov bəylə məsləhətləşdikdən sonra Andronikə bildirir ki, bir şərtlə razıyam ki, sənin dəstənin təhlükəsizliyini təmin etmək üçün mənə iyirmi qatır yüklü silah verməlisən. Silahları ondan aldıqdan sonra xəbər göndərir ki, gəlib keçsin. Əvvəlcə onun 170 qatıra yüklənmiş silahlarını, sonra isə özünü və dəstəsini pusquya salıb mühasirəyə alır. Andronikin 30 min əsgəri Zabıx dərəsində məhv edilir.

Zəngəzurun daha bir zəka sahibi, dini lideri və alimi Bəhlul Behcət də erməni və rus birləşmələrinə qarşı öz dəstəsilə igidcəsinə vuruşurdu. Sultanbəy Məlik-Əjdər türbələri yanında tikilmiş böyük çadırda Araz çayı ətrafından gəlmiş nümayəndələr ilə yaylaq məsələsini müzakirə edirdi. Görüşdə Qatar, Zəngilan, Cəbrayıl bəyləri də iştirak edirdilər.

Qatar bölgəsindəki vəziyyət haqqında çıxış edən nümayəndə daşnakların Cavidan tarixi abidələrini vəhşicəsinə dağıtmalarından kədərlə danışdı.

Sultanbəy üzünü Çal Aslana tutub Qaragöl döyüşü haqqında tədbir deməsini təklif etdi. Çal Aslan ağır döyüşlərdən qalib çıxmış sərkərdə təmkinilə

ayağa durub bir qədər qəzəblə Cavidan abidələrinin sındırılmasından danışan nümayəndəyə baxdı. Bu baxış məxvi müşavirədə iştirak edən bütün bəylərə xüsusi təsir bağışladı. O açıb deməsə də, daxilən keçirdiyi gərginlik aydın hiss olunurdu. Baxışlarıyla soruşurdu ki, bəs hanı sizin elin kişiləri ki, ata-baba yurdlarınızı dığalar dağıdırlar? Sonra o Qaragölü Zəngəzur dağlarının üzük qaşı adlandırdı. Onun xalq təsərrüfatı üçün böyük əhəmiyyətindən danışdı. Bu göldə qiymətli balıq növlərinin yetişdirilə bilməsindən dedi. Nəhayət, yaxın vaxtda Qaragöldə başlanacaq ağır döyüşlərin necə əlaqələndirilməsindən və necə idarə olunmasından danışaraq fikirlərini belə şərh etdi:

- Daşnaklar Qaragöl ətrafına böyük qüvvə toplamışlar. Məqsədləri qar əriyən kimi yaylaqları tutmaq, Minkənd, Şəlvə istiqamətində hərəkət edib Dəli dağdan Qarabağa enmək, bu yay aran ellərimizi yaylaqdan məhrum etməkdir. Bu çox təhlükəli bir siyasətdir. Hərgah biz aran ellərimizin mal-qarasını, qoyun-quzunu yaylağa çıxartmasaq hamısı qızdırıb və müxtəlif xəstəliklərə tutulub qırıla bilər. Bununla düşmənlər bizim iqtisadiyyatımıza böyük zərbə vurmuş olarlar. Biz Qaragöl yaylağından düşmənləri yaxın vaxtda təmiz qovmalıyıq. Bunun üçün təklif edirəm:

1. Qatar Zəngilan, Qubadlı ellərindən təşkil olunmuş dəstələr Gorusa sağ cinahdan hücum edib daşnakların şəhərdəki qüvvələrinin başını qatsınlar.
2. Bəhlul Behcətin yaratdığı Müsəlman din ordusu Kəcavə yolu ilə gəlib Yazı düzünə çıxsın. Ağdərə yoxuşundan aşıb Qaragölün Qannıca dağı tərəfdən olan sahəsini mühasirəyə alsınlar.
3. Xilaskar ovçular: Balakişinin, Əhmədin, Xəlilin, Kərəmin, Əlyanlı Sultanın dəstələri Burunkənddən Qaragölə gedən yolu kəssinlər.
4. Minkənd alayı Sisyandan gələn yolu kəsməklə hərdən arxa tərəfdən zərbə endirsin.
5. Dəli Xanların dəstəsi Xosrovbəyin Şuşadan göndərdiyi pəhləvanlar dəstəsinə qoşulub Qannıca dağından Qaragölə gələn yolu nəzarət altında saxlasın.
6. Pulemyotçular Çınqıllı dağda pusqu yaratsınlar.
7. Düşmənə əsas zərbə qaranlıq dərədən toplarla endirilsin.
8. Aşıq Abbasın təbilçi və zurnaçılar dəstələri döyüş günü tezdən Dəli Xanların dəstələrinin qabağında meydana tərəf hərəkət etsinlər. Gürz vuran, qılınc çalanları döyüşə ruhlandırsınlar.

Dünya görmüş Kərbəlayı Məmməd, Bəhlul Behcət, Qazi Çələbi Çal Aslanın çıxışına heyran qalmışdılar. Güləbirdli Aslanbəy yerindən qalxıb «döyüşün vaxtını bilmədim» - dedi. Sultanbəy özü cavab verərək bildirdi ki, Qaragöl döyüşü may ayının onunda səhər saat dörddə başlanacaq. Bununla Məlik-Əjdər məxvi görüşü öz işini qurtardı. Hamı verilən tapşırıqları yerinə yetirmək üçün böyük məsuliyyət hissi ilə çadırdan çıxırdı. Bəhlul Behcət Sultanbəyi ilk dəfə burada gördüyü üçün ona yaxınlaşıb əl verdi. Sultanbəy ona ehtiramla baş əyib təşrif gətirməyinə təşəkkür etdi. Bəhlul Behcət Azərbaycan dilinə tərcümə edib

qurtardığı «Quran» kitabının nəfis toxunmuş, üstündə qılınc şəkli olan dəsmala bükülü bir nüsxə əlyazmasını Sultanbəyə bağışladı.

1917-ci ilin may ayının 10-da Sultanbəy döyüşə rəhbərlik etmək üçün Çınqıllı dağın döşündə tikilmiş alaçığın qabağında atdan düşüb dürbünlə daşnakların qərargahına və ətraflara bir qədər baxdıqdan sonra Sultanbəylə görüşməyə hazır dayanmış Çal Aslana əl uzatdı. Çal Aslan iki əllə Sultanbəylə görüşüb səngərlərdən yenicə gəldiyini bildirdi. Əlavə etdi ki, hər şey öz qaydasındadır. Lazımlı bütün tədbirlər görülmüşdür. Hamı sizin işarənizi gözləyir. Sultanbəy cib dəsmalını çıxarıb alaçığın qabağındakı daşın üstünə sərdi. Sol döş cibindən Bəhlul Behcətin Azərbaycan dilində verdiyi «Quran»ı dəsmalın üstünə qoyub üzü qibləyə doğru dedi: «Ey «Quran», haqq işimizə görə bizə kömək elə». Sonra ehtiramla «Quranı» götürüb yenə döş cibinə qoydu. Şad təbəssümlə Çal Aslana baxıb qaranlıq dərədə yerləşən topçulara tərəf bir fişəng atdı. Bir anda topların səsi dağları lərzəyə gətirdi. Sərrast nişanlanmış topların mərmiləri düşdüyü yerlərdə daşnakların bütün sursatlarını torpaqla birlikdə göylərə sovurdu. Güclü top atəşinə məruz qalmış daşnaklar səhərin ala qaranlığında nəinki müqavimət göstərməyə imkan tapa bilmirdilər, hətta qaçmağa belə yer yoxuydu. Hansı səmtə üz tuturdularsa, güllə yağış kimi yağırdı. Topların səsinə Gorus şəhərinin və ətraf kəndlərin camaatı da oyanmışdı.

Qaragöl döyüşündə Sultanbəy 9 uzaqvuran, 5 yaxınvuran toplardan, 40 pulemyotdan, 3 min müxtəlif növ tüfəngdən, 120 qılıncdan, 50-dən çox gürzdən, 9 minə yaxın adamdan istifadə edirdi. Döyüş axşama qədər davam elədi. Demək olar ki, düşmənin əsas hərbi sursatı məhv edilmişdi. Əsir alınanların sayı 600-dən çox idi. Böyük düz qırılan və yaralananlarla dolu idi. Qaranlıq düşənə yaxın Sultanbəy topları döyüş meydanından çıxartdırıb Gorusun qaşına apartdırdı. Bir qədər sonra Gorus şəhəri toplardan atəşə məruz qaldı. Şəhərdə ciddi qarmaqarışıqlıq yaranmışdı. Bu vaxt Xınzirək kəndinə tərəf qaçanların sayı daha çox idi. Çal Aslanın göstərişi ilə Ağaməmməd Minkənd alayı ilə Xınzirək kəndini mühasirəyə aldı.

Ağaməmməd dəfələrlə ağır döyüşlərdən zəfərlə çıxmışdı. Ona Zəngəzurun dişli qartalı deyərmişlər. Ağaməmmədin adam gəmirən atları çox daşnak başı qopartmışdı.

Sabahısı günü Sultanbəyin Qaragöl ətrafındakı dəstələri bəzi işləri sahmana saldıqdan sonra qələbə mahnıları oxuya-oxuya Xınzirək kəndini mühasirədə saxlayan Ağaməmmədin dəstələrinə köməyə gəldilər. Xınzirək kəndinin camaatı müqavimətsiz Ağaməmmədin dəstələrinə qoşularaq daşnakları kənddən qovdular. Bununla Zəngəzur yaylaqlarındakı bütün təhlükələr aradan qaldırıldı. Sultanbəy Araz çayı ətrafındakı tərəkəmə ellərinə adam göndərdi ki, yaylaqlara arxayın köçə bilərsiniz.

## Sahil əməliyyatı

Sultanbəyin qəfil zərbələrinə tab gətirməyib İrana qaçmaq istəyən silahlı daşnak dəstələri Araz çayı sahilindəki qamışlıqlara doluşaraq gecələr fürsət tapan kimi çaya tökülüb o taya adlayırdılar. Sahil əməliyyatında Həkəri və Bərgüşad çaylarının vadilərindəki kəndlərin camaatı fəallıq göstərirdilər.

Qaçaq dəstələri Arazın sahilində sol cinaha Diri dağı, Xudafərin körpüsünü, sağ cinahda isə Mincivanadək sahil boyunu nəzarət altında saxlayıb Araza tökülən daşnak dəstələrini gülləbaran edib axırlarına çıxırdılar.

Qaçaqlar donuzları neftləyib, od vurub qamışlıqlarda yanğınlar törədərək düşmənləri məhv edirdilər. Yanğından qaçan erməniləri Zəngilan, Məmmədbəyli kəndlərinin ətrafındakı dərələrdə kütləvi şəkildə qırırdılar. Daşnakların xaricə aparmaq istədikləri var-dövləti əllərindən alıb Azərbaycan kəndlərinə paylayırdılar. Sahil əməliyyatı zamanı ermənilərdən alınmış silahlarla Çaytumas, Ağalı, Alaqurşaq, Xanlıq kəndlərində güclü silahlı dəstələr yaradırdılar.

## Sultanbəyin qızı Bəyim xanımın xatirələrindən

Uzun illər sürgünlərdə olmuş Bəyim xanım ailələrinin faciəli taleyindən belə nəql edir:

- Qırmızı Ruslar Zəngəzura gəldikdən sonra atama ardı-arası kəsilmədən sui-qəsdlər təşkil edirdilər. Qəsdlərin birində atama güllə də atdırdılar. İncəvardan güllə kişinin başından yox, çənəsinə dəyərək az yaralamışdır. Atam vəziyyətin gərginliyini başa düşmüşdü. Düşmənlərdən qoruduğu vətənində özünün qorunmağına heç bir ümid qalmamışdı.

Atam gələcəkdə vətəni yenə düşmənlərdən xilas etmək üçün xarici mühacirətə getmək qərarına gəldi. Bundan sonra bizim indiki Laçın rayonundakı mülklərimizdə yaşamağa imkan vermədilər. Anam Qarabağ xanlarının nəslindən, şair Natəvanın nəslinin ziyalı qızlarından biri idi. Bu günkü Xan kəndi mənim Ana babalarımın torpaqlarıdı. Biz bir qədər Qarabağdakı qohumlarımızın himayəsində yaşadıqdan sonra Bakıya köçməli olduq.

Anam ziyalı, qoçaq və bir qədər də diplomat qadın olduğundan xeyli vaxt məsul vəzifələrdə işlədi. Bir müddət Bakı şəhər sovetinin deputatı da oldu.

Otuzuncu illərin həyəcanlı gecələrinin birində qapımız döyüldü. Anam qapını açdı. Hərbi formada bir neçə adam icazəsiz evə girib başladılar evi axtarmağa. Evi alt-üst etdilər. Biz hələ də məəttəl qalmışdıq ki, bunlar nə axtarırlar.

Demiyəsən, NKV-də işləyən daşnak agentlər çoxdan bizim evi nəzarət altında saxlayıb güdürmüşlər. Bir azdan atamın şəkli, «Quran»ı, müxtəlif, lazımlı sənədləri, qiymətli əşyaları saxlanan boxçanı yükün arasından götürüb açdılar. Gələnlərdən biri erməni idi. O atamın şəklini görən kimi həyəcanla: «vot, vot, Sultanbek» deyib şəkli onunla gələnlərə göstərdi. Bir neçə dəqiqədən sonra anama

bildirdilər ki, evdən heç nə götürmədən həbs olunursunuz. Əynimizin paltarını da götürməyə imkan vermədilər. Gecə hamımızı gətirdilər Bayıl türməsinə. Biz türmədə eşitdik ki, Məmməd Əmin Rəsulzadənin ailəsi də buradadır. Sonra bizə dedilər ki, 700 azərbaycanlı qadını bu gecə sürgün edəcəklər. Səhərə yaxın bizi yük vaqonlarına doldurub Bakıdan çıxartdılar. Hara apardıqlarını bilmirdik. Yağışın, küləyin, günün altında bir aya yaxın yollarda qaldıq. Aclığa, susuzluğa tab gətirməyib ölənləri qatar gedə-gedə hara gəldi atırdılar. Demək olar ki, hamı üzülmüşdü. Körpə uşaqların vəziyyəti daha ağır idi. Üstümüzdə dayanan silahlılar azərbaycan uşaqlarına düşmən uşağı kimi baxırdılar. Hər gün gözümüzün qabağında onlarla uşaq ölürdü. Bu vaxt ən dəhşətlisi ölən azərbaycanlıların məzarları üstündə ad-soyad yazmağa icazə verməmələri idi. Gələcəyə iz qalmasın deyə, qəbiristan yaratmağa qoymurdular. Azərbaycanlıları mənəvi cəhətdən ən çox sarsıdan burada da məhbusların taleyinin ermənilərin ixtiyarına verilməsi idi. Azərbaycanlılar yaşayan həbs düşərgələrində ermənilər ağlasığmaz dəhşətlər törədirdilər. Canilər qadınların üstlərindəki qızıl zinətləri (təsadüfi hallarda bəzi qadınların üstündə qızıl olurdu) açırdılar, hətta ağızlarındakı qızıl dişlərini də kəlbətinlə sındırıb çıxarırdılar. Düşərgələr dolu idi azərbaycanlılarla. Çox vaxtı adamlar bir-birlərindən soruşurdular ki, görən Azərbaycanda heç azərbaycanlı qalıbmı?! Sürgündəki adamları çox işlədirdilər. Qazaxıstanın bir çox vilayətləri sürgün olunmuş azərbaycanlıların qabarlı əlləri, alın tərləri hesabına abadlaşdırılmışdır. Anam qoçaqlıqda ad qazanmışdı. İşdən sonra sürgündəki azərbaycan uşaqlarına savad öyrətmək məqsədi ilə dərnək təşkil etmişdi. Uşaqlar anamı "müəllim" deyə çağırırdılar.

1948-ci ildə anam icazə ilə Bakıya gəlib, Bağırovun qəbuluna yazılıb onunla görüşür. Ailəmizin Bakıya qayıtması haqqında icazə istəyir. Lakin anam istəyinə nail ola bilməyib kor-peşman yenə Qazaxıstana qayıtdı. 1956-cı ilə qədər bir sürgündə qaldıq.

Qaradərə kəndində Qaçaq Fərzalı, Vedibasarda Kərbəlayı İsmayıl və Qəmlo daşnaklara və bolşeviklərə qarşı vuruşaraq xalqımızın qəhrəmanlıq tarixini yenidən yazırdılar. Xalqımızın tarixində qaçaq dövrü həm də torpaqlarımızın müdafiəsində mühüm bir mərhələ kəsb edir.

Ermənilərin və bolşeviklərin zaman-zaman xalqımıza etdikləri zülmlər Bilal Ənsərin və onun ailəsinin taleyində öz əksini tapa bilib. Onun qeydlərində deyilir: "17 il bundan əvvəl böyük qardaşlarının - rusların köməyi ilə 216 nəfəri qətlə yetirib, 250 min türkü topla-tüfənglə doğma dədə-baba yurdlarından qovmuş ermənilər, hələlik o torpağa sahib çıxıblar. Elə buna görə də qaldırdığınız məsələ, eyni vaxtda, Dağlıq Qarabağın həlli üçün də əsas amil olar.

Bu bir həqiqətdir ki, dünyada ilk dəfə 1828-ci ildə, Azərbaycan parçalanandan sonra, böyük qardaşların köməyilə 1111 kənddən ibarət erməni vilayəti yaradıldı. Həmin kəndlərin də yalnız 62-də erməni yaşayırdı. Bu da həqiqətdir ki, 1914-cü ilə kimi İrəvan xanlığını bir-birinin ardınca 49 türk idarə

edib. Şərqi Anadolunun sınırlarında yaşamış 2 milyon 29 min sakini ancaq o torpaqlara sahib olmaq arzusu ilə çarpışıb.

Rusiyada kommunistlər hakimiyyətə gələndən sonra, xüsusilə, Qafqazda kütləvi qırğınlar başladı. Rusiya-Türkiyə, erməni-gürcü, erməni-müsəlman qırğınları ara vermirdi. Ermənilərin silahlı hücumları qarşısında əliyalın türklər aciz qalırdılar. Ona görə də doğma torpaqlardan uzaqlarda yaşamağa məcbur olundular. Voronsovka, Cəlaloğlu, Qızıl Qoç, Amasiya, Başkeçid, Bolnisi bölgələrindən Türkiyənin Qars, Ərdahan, İqdır, Ərzurum, Bitlis, Muş, Ərzincan... bölgələrinə pənah aparmış yüzlərcə həmvətənlərimiz var.

Tarixçi-alim Sevil Kərimovanın «Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu» kitabında XVIII əsrin I yarısında Qafqazın işğalında erməni təhriki və rusların onlara himayədarlığı, eləcə də XVIII əsrin II yarısında, həmçinin də XIX əsrdə bu prosesin inkişafı tamamilə sübuta yetirilib. 1669-cu ildə İsfahandakı erməni tacirləri I Pyotra qiymətli hədiyyələr bağışlayaraq Qafqazın işğal yolunu ona izah etmişlər. Erməni «milli azadlıq hərəkatının lideri» kimi qələmə verilən İzrail Ori isə I Pyotra məktub yazaraq erməniləri müsəlman zülmündən qurtarmağı din qardaşlarından xahiş edib. Özü də rus ordusunun 100 min əsgərinin ərzağının erməni tacirləri tərəfindən ödəniləcəyini də bəri başdan vəd verir. İ.Ori məktubunda bir az da qabağa gedərək rus ordusunu təkcə Qafqazı deyil, həm də Osmanlı dövlətini də ələ keçirməyə çağırırdı.

Ermənilərin ruslara sədaqətli olduğunu görən çarizm 1779-cu ildə Rostov-Don şəhəri ətrafında bir erməni şəhəri saldırır, erməniləri ora köçürür, şəhərin adını da qoyur Naxçıvan!

1803-cü ildə Sisianov hələ Gəncə üzərinə hücum etməzdən xeyli əvvəl erməni əsilli general-mayor Lazarov ona yazırdı: «Bütün Gəncə erməniləri Rus ordusunun Gəncəyə hücumunu səbirsizliklə gözləyir».

Qafqazın, o cümlədən Azərbaycanın işğalında rusların ən yaxın köməkçisi olan erməni generalı Valerian Mədətəvun əli xalqımızın qanına batmışdır.

Türkmənçay müqaviləsi başa çatdıqdan sonra müqavilənin 15-ci maddəsinə əsasən ermənilər İrandan Azərbaycana, Qarabağa köçürülürlər. Bu işdə Rusiyanın İrandakı səfiri A.Qriboyedov xüsusi rol oynamışdır.

Sonrakı dövrlərdə də ermənilər rusların ətəyindən tutaraq özlərinə Qafqazda yer eləməyə çalışırdılar. Və Azərbaycan torpaqları hesabına buna nail oldular da.

Erməni satqınlığı və erməni yalanı bəzən ayaq tutub yerisə də, bəzən bu hiylə və yalan hörümçəyinin toxuduğu torlar dağılır. Məşhur erməni yazıçısı Vardges Petrosyan yazır: «...erməni tarixi sanki satqınsız ola bilməz. Bizim bir çox satqınlarımız tarixi şəxsiyyətlərdir və hətta biz onların harada dəfn olunduqlarını da bilirik... Bu Melik Frankül, Vasak, Merujan, Arsruni, Best-Sarkis, yüzbaşı Miqran, onların sayı-hesabı yoxdu».

İrşad İbrahimov yazır: «Roma sərkərdəsi Mark Antoni e.ə. 34-cü ildə uydurma "böyük Ermənistan" çarı II Tiqranın oğlu II Artavaxdı ona xəyanət etdiyi üçün qandallayıb İsgəndəriyyəyə aparmış və başını kəsdirməklə edam etmişdir. Ermənilər indi yaşadıqları ərazidə, qədim, avtoxton olduqlarını sübut etmək üçün dəridən-qabıqdan çıxırdılar. Onlar müsəlman qəbir daşlarını, Atabəylərin buraxdıqları sikkələri və onlardakı ərəb əlifbasıyla yazılmış yazıları tərsinə oxuyub öz tarixlərini süni surətdə qədimləşdirmək istəyirdilər. Ancaq bəzən onların fırıldaqları baş tutmur. Bu mənada akademik B.Piotrovski onları ölümcül ifşa etmişdir. Ermənilər Yerevan şəhərinin yaşının 2750 il olduğunu iddia edib BMT xətti ilə onun yubileyinin keçirilməsini planlaşdırırdılar. Lakin iddia əsassız olduğu üçün BMT onu qəbul etmədi. Həqiqətən Yerevan İrəvan adlanmaqla 1509-cu ildə Şah İsmayılın əmri ilə salınmışdır. Yalnız 1936-cı ildə şəhər Yerevan adlandırılıb.

Ermənilər Qərbi Azərbaycan torpaqlarındakı türk nişanələrini kəsmək üçün buradakı bütün türk adlarını dəyişdirmişlər. Əziz Ələkbərlinin «Qədim türk-oğuz yurdu «Ermənistan» kitabında bu məsələlərə işıq tutulur. Bu gün «Ermənistan» adlanan Qərbi Azərbaycanın sahəsi 29,8 min kv.kilometrdir. Buraya 36 rayon, 24 şəhər və kəndlər daxildir. O cümlədən vaxtilə Qərbi Azərbaycanda 7 mahal var idi.

Ermənilər zaman-zaman türk izlərini itirmək üçün buradakı türk yer adlarını erməniləşdirmək siyasətini də həyata keçiriblər. Məsələn, rayon adlarını onlar belə erməniləşdiriblər: Abaranı «Aparan» eləyiblər. O cümlədən Damcılını «Mravjan», Babakişini «Bujakan», Gülablını «Dzoraqlux» şəklinə salıblar və sair.

Akin rayonunu «Ani»ya çeviriblər. Eləcə də həmin rayonun kəndlərindən Söyüdlünü «Sarnaxpyur», Bəbirlini «Bartsraşen», Daşqalanı «Karaberd» kimi dəyişiblər və sair. Vaxtilə dədə-babalarımızın Manas adlandırdığı rayonu əvvəl Allahverdi, sonra isə «Tumanyan» eləyiblər. Eləcə də Qaçağan kəndinin adını «Arevadzor», Uzunları isə «Odzun» şəklinə salıblar və sair. 1988-89-cu illərdə isə bu rayonun dörd sakini ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib.

Amasiya rayonunun İlli kəndini «Hoğmak», Qaraməmmədi «Məğraşat», Cələbi «Rodzor» adlandırıblar. 1988-89-cu illərdə 13 nəfər soydaşımız öldürülüb.

Axta rayonunun adı dəyişib «Hrazdan», kəndləri Dərəçiçək «Tsaxkadazor», Ərzəkəndə «Arzakan», Paşakənd «Marmarik» kimi dəyişikliyə məruz qalıb. Bu rayonun da üç nəfər Azərbaycan türkü olan sakini 1988-89-cu illər hadisələri zamanı vəhşicəsinə öldürülüblər. Aşağı Qaranlıq rayonu Martuni adlandırılıb. Həmçinin rayonun bir sıra kəndlərinin də adı dəyişdirilib: Avdalağlı «Vavaşen», Vəliağalı «Dzorakyuğ», Göl «Liç», Kəsikbaş «Lernaker» və sair şəklinə salınıb.

Barana rayonu Noyamberyan edilib. Habelə rayonun kəndləri Əskipara «Boskepar», Ləmbəli «Debedaşen», Qalaça «Berdavan», Körpülü «Haxtanak» adlandırılıb və sair. Məlum hadisələr zamanı üç nəfər rayon sakini olan soydaşımız öldürülüb. Basarkeçər rayonunun adı dəyişdirilib Vardanes edilib. Kəndlərindən Ağkilsə -«Azad», Qırxbulaq - «Akunk», Gödəkbulaq - «Karçaxpyur», Yarpızlı -

«Lçavan» edilib və sair. Rayonun 45 Azərbaycan türkü 1988-89-cu illərdə vəhşicəsinə qətlə yetirilib. «Böyük Qarakilsə» rayonunu Quqark, «Vedini» Ararat eləyən ermənilər bir şeyi başa düşmürlər ki, yer adını dəyişmək olar, amma ruhumuzu dəyişmək, ruhumuzu işğal etmək mümkün deyil.

Ermənilər bütün rayonların, kəndlərin adını dəyişdilər. 1988-ci il hadisələrindən sonra isə Azərbaycanın 20 faiz torpaqlarını işğal etdilər. «Ocaq» kitabının müəllifi Zori Balayanın fitvası ilə minlərlə Azərbaycan türkünün qanını tökdülər.

Ermənilər torpaqlarımızı işğal etməklə özlərini dünya ilə üz-üzə qoydular. İndi mən sizə BMT-nin sənədlərini bütöv halda çatdırmaq istəyirəm:

## BMT-nin Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsilə bağlı bəyanatları

### Təhlükəsizlik Şurası sədrinin bəyanatı 12 may 1992-ci il

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmədən sonra Şuranın sədri Şuranın adından 1992-ci il mayın 12-də onun 3072-ci iclasında «Dağlıq Qarabağda vəziyyətə dair» sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir: «Təhlükəsizlik Şurasının üzvləri Dağlıq Qarabağa dair vəziyyətin pisləşməsi və atəşkəs barədə sazişlərin pozulması ilə bağlı böyük insan tələfatına və xeyli maddi ziyan vurulmasına gətirib çıxaran son məlumatlardan, eləcə də, bunların region ölkələri üçün nəticələrindən dərin narahatlıq keçirirlər.

Təhlükəsizlik Şurasının üzvləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində görülən səyləri, eyni ilə tərəflərə sülh yolu ilə nizamlanma əldə etməyə və humanitar yardım göstərilməsinə yönələn digər səyləri yüksək qiymətləndirir və dəstəkləyirlər.

Onlar Baş Katib tərəfindən bu bölgəyə təcili olaraq faktların araşdırılması və tərəflərə sülh yolu ilə nizamlanma əldə etmək üçün ATƏM çərçivəsində göstərilən səylərə tezliklə kömək edilməsi yollarının və vasitələrinin öyrənilməsi üçün missiya göndərilməsini alqışlayır. Bu missiya həmçinin beynəlxalq birlik tərəfindən təxirəsalınmaz humanitar yardım göstərilməsinin mümkün yollarının öyrənilməsi üçün özünə müvafiq texniki elementi daxil edəcəkdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün maraqlı tərəfləri zorakılığa son qoyulması, Baş Katibin missiyasının işini asanlaşdırmaq və onun personalının təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirləri görməyə çağırır. Onlar Şuranın Sədri adından 1992-ci il yanvarın 23-də (S/23496) və fevralın 14-də (S-23597) müvafiq olaraq Ermənistanın və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması barədə edilən bəyanatlarını və xüsusilə də,

nizamlanan mübahisələrin dinc yollarla və güc tətbiq etmədən nizamlanmasına aid prinsiplərinə istinadları xatırlayırlar».

**Təhlükəsizlik Şurası sədrinin bəyanatı.**
**26 avqust 1992-ci il**

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmələrdən sonra Şuranın Sədri adından «Dağlıq Qarabağda vəziyyətə dair» sərlövhəli bəndlə əlaqədar aşağıdakıları bəyan etmişdir: «Dağlıq Qarabağda vəziyyətin pisləşməsi, çoxlu insan tələfatına və geniş miqyasda maddi zərərə səbəb olması haqqında məlumatlar Təhlükəsizlik Şurasının üzvlərini dərindən narahat etmişdir.

Təhlükəsizlik Şurasının üzləri bütün tərəfləri və digər əlaqədar tərəfləri atəşi dərhal dayandırmağa və ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk Konfransının səylərinə, habelə Romada keçirilən hazırlıq danışıqlarına yardım göstərməyə qətiyyətlə çağırırlar. Onlar bütün tərəfləri və digər əlaqədar tərəfləri ATƏM ilə sıx əməkdaşlıq etməyə və öz mübahisələrinin dinc yolla aradan qaldırılmasına mümkün qədər tez nail olmaq məqsədilə danışıqlarda müsbət mövqedən iştirak etməyə təkidlə çağırırlar. Onlar qeyd etmişlər ki, Baş Katib faktları müəyyən etmək üçün həmin bölgəyə nümayəndələr göndərmiş və ATƏM-in yuxarıda adı çəkilən danışıqlarına nümayəndələr göndərməyə hazırdır. Şuranın üzvləri Dağlıq Qarabağda vəziyyətin inkişafı ilə əlaqədar olaraq həmin rayonlarda Birləşmiş Millətlər Təşkilatının rolunu sonralar, lazımı vaxtda müzakirə edəcəklər».

**Təhlükəsizlik Şurası sədrinin bəyanatı**
**27 oktyabr 1992-ci il**

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmədən sonra Şuranın sədri Şuranın adından 1992-ci il sentyabrın 27-də keçirilmiş 3127-ci iclasında «Dağlıq Qarabağda vəziyyətə dair» sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir: «Təhlükəsizlik Şurası 1992-ci il sentyabrın 21-də Soçidə atəşkəs barədə sazişin bağlanmasına baxmayaraq Dağlıq Qarabağda və onun ətrafında ciddi vəziyyətin qalmasından, eləcə də bununla əlaqədar insan tələfatı və maddi itkilər olmasından dərin narahatdır.

Təhlükəsizlik Şurası özünün 1992-ci il 26 avqust (S/24493) tarixli «Dağlıq Qarabağda vəziyyətə dair bəyanat»ının məzmunu, xüsusilə də, ATƏM-in Dağlıq Qarabağa Minsk konfransının səylərinə dəstəyini təsdiq edir. O, qətiyyətlə bütün tərəfləri və bu məsələyə aid olan digərlərini dərhal atəşi dayandırmağa və blokadanın bütün növlərini aradan qaldırmağa çağırır. O, Minsk Konfransının işinin dərhal başlanılmasına və Sədrin təklif etdiyi qayda və proseduralar əsasında siyasi danışıqların açılmasına çağırır. O, təkidlə bu məsələyə aidiyyatı olan bütün

tərəfləri və digərlərini onların mübahisələrinin tezliklə hərtərəfli nizamlanmasını əldə etmək üçün ATƏM-lə sıx əməkdaşlığa və Konfransın işində əsaslı iştirak etməyə çağırır. Təhlükəsizlik Şurasının Baş Katibi Birləşmiş Millətlər Təşkilatının ATƏM-in səylərinin dəstəklənməsi planına, eləcə də humanitar yardım göstərilməsinə nə kimi töhfə verə biləcəyi məsələsinin öyrənilməsi üçün bu regiona öz nümayəndəsini göndərməyə dair niyyətindən məmnun olduğunu bildirir».

**Təhlükəsizlik Şurası sədrinin bəyanatı**
**29 yanvar 1993-cü il**

Təhlükəsizlik Şurasının Sədri 1993-cü ilin 29 yanvarında keçirdiyi məsləhətləşmələrdən sonra, Şuranın üzvləri adından kütləvi informasiya vasitələrin nümayəndələrinə aşağıdakıları bəyan etmişlər:

«Ermənistan və Azərbaycanın Naxçıvan Muxtar Respublikasına malların və metarialların göndərilməsi, xüsusilə, elektrik enerjisi verilməsindəki fasilələrin dağıdıcı nəticələri ilə əlaqədar Təhlükəsizlik Şurasının üzvləri dərin narahatlıq keçirdiklərini bildirirlər. Qeyri-adi dərəcədə sərt qışın genişləndirdiyi bu fasilələr həmin bölgələrin iqtisadiyyatını və infrastrukturunu iflas həddinə gətirib çıxarmış və real aclıq təhlükəsi yaratmışdır.

Şuranın üzvləri təkidlə bütün kömək edə biləcək ölkələri, yanacaq və humanitar yardımın göndərilməsinə kömək etməyə və region ölkələrinin hökumətlərini humanitar vəziyyətin gələcəkdə daha da pisləşməsinin qarşısını almaq məqsədilə humanitar yüklərin, xüsusilə də yanacağın Ermənistan və Azərbaycanın Naxçıvan bölgəsinə maneəsiz çatdırılmasını təmin etməyə çağırır.

Şuranın üzvləri tərəfləri bir araya gətirmək və ATƏM-in bu regionda sülhün bərqərar olmasına yönələn bütün səylərini tam dəstəklədiklərini bir daha bəyan edirlər. Onlar tərəfləri dərhal atəşkəsə və tezliklə ATƏM çərçivəsində danışıqların yenidən başlanılmasına razılaşmağa çağırırlar.

Təhlükəsizlik Şurasının üzvləri bu məsələyə baxmağı davam etdirəcəklər».

**Təhlükəsizlik Şurası sədrinin bəyanatı.**
**6 aprel 1993-cü il**

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələrdən sonra Şuranın Sədri Şuranın adından 1993-cü il aprelin 6-da onun 3194-cü iclasında «Dağlıq Qarabağda vəziyyətə dair» sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir: «Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsindən və Dağlıq Qarabağ münaqişəsində düşmənçilik hərəkətlərinin güclənməsindən, xüsusilə yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahat olduğunu bildirir. Şura sülh və bölgənin

təhlükəsizliyi üçün qorxu törədən düşmənçilik hərəkətlərinin hamısına dərhal son qoymağı və bu qüvvələri oradan çıxarmağı tələb edir.

Bununla əlaqədar Təhlükəsizlik Şurası bölgənin bütün dövlətlərin suverenlik və ərazi bütövlüyünü, onların sərhədlərinin pozulmazlığını təsdiq edərək, ATƏM çərçivəsində sülh prosesinə tərəfdar olduğunu bildirir. O, ümid etdiyini bildirir ki, Minsk Qurupun bu yaxınlarda əldə etdiyi ilkin sazişdən sonra yaxın vaxtlarda atəşi dayandırmaq, müşahidəçilərin yerləşdirilməsi cədvəli, siyasi bəyannamənin layihəsi barədə sazişlər də əldə olunacaq və Minsk Konfransı tezliklə çağırılacaqdır.

Təhlükəsizlik Şurası müvafiq tərəfləri ATƏM çərçivəsində sülh prosesində irəliləyiş olması üçün əllərindən gələni əsirgəməməyə və problemin siyasi həllini çətinləşdirə bilən heç bir hərəkətə yol verməməyə təkidlə çağırır. Şura həmçinin mülki əhalinin iztirablarını azaltmaq məqsədi ilə bölgədə, o cümlədən münaqişəyə cəlb olunmuş bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır. Təhlükəsizlik Şurası Baş Katibdən xahiş edir ki, ATƏM ilə məsləhətləşərək, faktları müvafiq şəkildə müəyyənləşdirsin və təcili olaraq Şuraya hadisə yerində vəziyyətə qiymət verilən məruzə təqdim etsin. Şura bu məsələ ilə məşğul olmaqda davam edəcəkdir».

## BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi.
## 30 aprel 1993-cü il

Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da (S/1999) və aprelin 6-da (S/25539) verdiyi bəyanatlara istinad edərək, Baş Katibin 1993-cü il aprelin 14-dəki məruzəsini (S/26600) nəzərə alaraq, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək, silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycan Respublikasının Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahatlıqla qeyd edərək, eləcə də vəziyyətin bölgədəki əmin-amanlığı və təhlükəsizliyi qorxu altına aldığından narahat olaraq, çoxlu sayda mülki şəxsin yerdəyişməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə durumla bağlı ciddi narahatlıq ifadə edərək, bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək, eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bildirir və silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək:

1. Atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Bu işdə maraqlı olan tərəfləri münaqişəni ATƏM-in Minsk Qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışıqları bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir; Bölgədə, o cümlədən, münaqişənin əhatə etdiyi bütün rayonlarda mülki əhalinin iztirablarını yüngülləşdirmək üçün humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

3. Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə, habelə ATƏM-in Minsk Qrupunun sədri ilə məsləhətləşmə keçirib bölgədəki, o cümlədən Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyətə qiymət versin və Şuraya yeni məruzə təqdim etsin;

4. Qərara alır ki, bu məsələ ilə fəal məşğul olunmasını davam etdirsin.

## BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi.
## 29 iyul 1993-ci il

Təhlükəsizlik Şurası 1993-cü il 30 aprel tarixli öz 822 (1993) saylı qətnaməsini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Minsk Qrupunun sədri tərəfindən 1993-cü il iyulun 27-də (S/26184) baxılmış məruzəni nəzərdən keçirərək, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasındakı gərginliklə əlaqədar olaraq ciddi narahatlıq keçirdiyini ifadə edərək, əlaqədar tərəflərin onun 822 (1993-cü il) saylı qətnaməsinin həyata keçirilməsi sahəsində təxirəsalınmaz tədbirlər cədvəlini qəbul etməsini alqışlayaraq, hərbi əməliyyatların güclənməsini, o cümlədən, Azərbaycan Respublikasında Ağdam rayonunun işğal olunmasını təşvişlə qeyd edərək, bu vəziyyətin bölgədə sülh və təhlükəsizlik üçün qorxu törətməsindən narahat olaraq, Azərbaycan Respublikasında çox böyük sayda mülki şəxslərin didərgin düşməsi və bölgədəki fövqəladə humanitar vəziyyətlə əlaqədar yenə də ciddi narahatlıq keçirdiyini ifadə edərək:

1. Azərbaycan Respublikasının Ağdam rayonunun və bu yaxınlarda zəbt olunmuş bütün digər rayonlarının işğalını pisləyir;

2. Bölgədə gələcəkdəki bütün düşmənçilik hərəkətlərini, o cümlədən, mülki şəxslərə hücumları və yaşayış rayonlarının bombalanmasını və top atəşinə tutulmasını pisləyir;

3. Bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan dərhal, tamamilə və qeyri - şərtsiz çıxarılmasını tələb edir;

4. Əlaqədar tərəfləri atəşin dayandırılması haqqında razılığa gəlməyə və bu razılaşmalara əməl etməyə çağırır;

5. Bölgədə iqtisadi, nəqliyyat və energetika əlaqələrini bərpa etməyə dair özünün əvvəlki çağırışlarını yuxarıdakı 3 və 4-cü bəndləri baxımından bir daha təsdiq edir;

6. Münaqişənin dinckliklə aradan qaldırılmasına nail olmaq sahəsində ATƏM-in Minsk Qrupunun davam etdirdiyi səyləri, o cümlədən, 822 (1993-cü il) saylı qətnamənin həyata keçirilməsi sahəsində səyləri bəyənir və hərbi əməliyyatların gücləndirilməsinin bu səylər üçün fəlakətli nəticələr verə biləcəyi ilə əlaqədar ciddi narahatlıq keçirdiyini ifadə edir;

7. ATƏM-in müşahidə üzrə nümayəndə heyətinin, həmçinin onun yerləşdirilməsi cədvəlinin hazırlanması sahəsində tədbirləri, habelə bölgədə ATƏM-in nümayəndələrinin olmasının təmin edilməsinə dair təkliflərə ATƏM çərçivəsində baxılmasını alqışlayır;

8. Əlaqədar tərəfləri münaqişənin dincliklə aradan qaldırılmasına maneçilik törədən hər hansı hərəkətlərdən çəkinməyə və vəziyyətin qəti şəkildə nizama salınmasına nail olmaq məqsədilə danışıqları ATƏM-in Minsk Qrupu çərçivəsində, habelə əlaqədar tərəflər arasında birbaşa görüşlər vasitəsi ilə davam etdirməyə təkidlə çağırır;

9. Ermənistan Respublikasının hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 (1993-cü il) saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk Qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır;

10. Dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artmış iztirablarını yüngülləşdirmək üçün bölgədə, xüsusən münaqişənin əhatə etdiyi bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə yenidən çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

12. Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərsin və didərgin düşmüş şəxslərə öz evlərinə qayıtmağa kömək etsinlər;

13. Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə məsləhətləşərək yaranmış vəziyyət haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsin;

14. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı.
## 18 avqust 1993-cü il

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq, Şuranın sədri Şuranın adından onun 1993-cü il avqustun 18-də keçirilmiş 3264-cü iclasında «Dağlıq Qarabağda vəziyyətə dair» sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirdiyini bildirir. Şura Ermənistan Respublikasının hökumətini Azərbaycanın BMT TŞ-nin 822 və 853 saylı qətnamələri ilə razılaşmalarına nail olmaq məqsədilə öz təsirindən istifadə etməyə çağırır.

Şura habelə bu günlərdə Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahatlıq keçirdiyini bildirir. Şura əvvəllər Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarına müdaxilənin və onların işğalını pislədiyi kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən Füzuli rayonuna edilən hücumları sülh və təhlükəsizlik üçün qorxu törədən hərbi əməliyyatların və bombardmanların dərhal dayandırılmasını tələb edir, habelə, işğalçı qüvvələrin Füzuli zonasından, həmçinin, Azərbaycan Respublikasının Kəlbəcər, Ağdam rayonlarından və bu yaxınlarda işğal olunmuş başqa rayonlarından dərhal, tamamilə və qeyri-şərtsiz çıxarılmasını tələb edir. Şura Ermənistan Respublikasının hökumətinin bu məqsədlə öz təsirindən istifadə etməyə çağırır.

Şura Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə, onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmağa dair ATƏM-in Minsk Qrupunun səylərinə döyüş əməliyyatlarının göstərdiyi təsirdən dərin narahatçılıq keçirdiyini bildirir. Şura ATƏM-in sülh prosesini tamamilə müdafiə etmədiyini qeyd edir və Minsk Qrupunun danışıqlarını indiki mərhələsində öz baxışlarını və mövqelərini bilavasitə ifadə etmək üçün münaqişədə iştirak edən tərəflərə verilmiş imkanı xüsusilə nəzərə çarpdırır. Bu baxımdan Şura bütün tərəfləri avqustun 13-də Minsk Qrupunun təqdim etdiyi «BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair təxirə salınmaz tədbirlər cədvəli»nin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırır. Şura yaranmış vəziyyətin bütün cəhətləri barədə məruzə hazırlamaq üçün bölgəyə missiya göndərmək haqqında ATƏM-in niyyətini alqışlayır.

Son günlərdə münaqişənin genişlənməsi ilə əlaqədar Şura dövlətləri münaqişənin güclənməsinə və ya Azərbaycan Respublikası ərazisinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və döyüş sursatı

göndərməkdən çəkinmək barədə 853 saylı qətnamədəki çağırışını bir daha təkidlə təsdiq edir. Şura Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə çağırır.

Şura habelə mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədilə bölgəyə, münaqişədən zərər çəkmiş bütün zonalara beynəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair 822 və 853 saylı qətnamələrdə olan çağırışları bir daha təkrar edir. Şura tərəflərə xatırladır ki, onlar beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar və əməl etməlidirlər. Təhlükəsizlik Şurası bu məsələ ilə fəal məşğul olmaqda davam edəcək və özünün qətnamələrinə bütün tərəflərin tamamilə razı olmasını və əməl etməsini təmin etməkdən ötrü müvafiq tədbirləri nəzərdən keçirməyə hazır olacaqdır.

## BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi.
## 14 oktyabr 1993-cü il

Təhlükəsizlik Şurası özünün 1993-cü il 30 aprel tarixli 822 saylı və 1993-cü il 29 iyul tarixli 853 saylı qətnamələrini təsdiq edərək və Şuranın sədrinin Şura adından 1993-cü il avqustun 18-də oxunmuş bəyanata (S/26326) istinad edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Dağlıq Qarabağa dair Minsk Konfransı sədrinin Təhlükəsizlik Şurası sədrinin adına göndərilmiş məktubunu (S/26522) nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərdəki gərginliyin bölgədə sülh və təhlükəsizlik üçün qorxu yarada biləcəyindən ciddi narahat olduğunu bildirərək, 1993-cü il oktyabrın 8-də Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına kömək edəcəyinə ümid bəsləyərək, Azərbaycan Respublikasının və regiondakı bütün başqa dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək, habelə, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyini bir daha təsdiq edərək, münaqişənin adamlara gətirdiyi münasibətlərdən ciddi narahat olduğunu bir daha bildirərək və o cümlədən Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin köçkün vəziyyətə düşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə edərək:

1. Əlaqədar tərəfləri ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində müəyyən olunmuş atəşkəsə səmərəli və daimi əməl etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini, habelə ATƏM-in Minsk Qrupunun daimi səylərini tamamilə dəstəklədiyini bir daha bəyan edir;

3. 1993-cü il oktyabrın 8-də ATƏM-in Minsk Qrupunun müşavirəsində hazırlanmış və qrupun sədri tərəfindən əlaqədar tərəflərə təqdim olunmuş və həmin qrupun digər 9 üzvünün hərtərəfli dəstəklədiyi «Təhlükəsizlik Şurasının 822 (1993) yə 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»ni alqışlayır və tərəflərin buna diqqət yetirilməsini tövsiyə edir və tərəfləri həmin cədvəli qəbul etməyə çağırır;

4. Əmin olduğunu bildirir ki, münaqişədən doğan və «yeniləşdirilmiş cədvəl»də bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll edilməmiş məsələləri ATƏM-in Minsk prosesi baxımından tezliklə sülh danışıqları çərçivəsində həll etmək lazımdır;

5. Qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması, kommunikasiya və nəqliyyat üçün olan bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk Qrupunun «yeniləşdirilmiş cədvəl»də nəzərdə tutulmuş qarşılıqlı və təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır;

6. Habelə, cədvəldə nəzərdə tutulduğu kimi münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasına nail olmaq məqsədilə, ATƏM Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli mandatına uyğun olaraq, ATƏM-in Minsk Konfransını tezliklə keçirməyə çağırır;

7. Baş Katibdən ATƏM-in Minsk Konfransından iştirak etmək üçün nümayəndə göndərmək təklifinə müsbət yanaşmağı və konfransın açılışından sonra danışıqların mətləbdən kənara çıxması üçün mümkün olan hər cür kömək göstərməyə xahiş edir;

8. ATƏM-in müşahidə üçün yaratdığı missiyanı dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ hər hansı şəkildə pozmaqdan çəkinməyə çağırır və münaqişənin toxunduğu bütün rayonlarda humanitar yardım göstərməsinə dair beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etmək barədə 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışını bir daha təkrar edir;

10. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən, işə hər hansı şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə humanitar yardım göstərilsin, qaçqınlara və köçkün şəxslərə öz evlərinə ləyaqətlə və təhlükəsizlik şəraitində qayıtmağa kömək etsinlər;

12. Habelə, Baş Katibdən, ATƏM-in indiki sədrindən və ATƏM-in Minsk Konfransının sədrindən xahiş edir ki, Minsk prosesinin gedişi haqqında və yerlərdə vəziyyətin bütün cəhətlərinə dair, habelə bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcəkdəki əməkdaşlıq haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsinlər;

13. Bu məsələ ilə məşğul olmağı davam etdirməyi qərara alır.

## BMT Təhlükəsizlik Şurasının qərarları qətnaməsi.
## 11 noyabr 1993-cü il

Təhlükəsizlik Şurası özünün 30 aprel 1993-cü il tarixli 822 saylı və (1993) 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 saylı (1993) qətnamələrini təsdiq edərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasının regionda sülhü və təhlükəsizliyi təhdid edəcəyinə görə ciddi narahatlıq ifadə edərək, atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların eskalasiyasının və bu pozuntulara cavab olaraq həddindən artıq güc tətbiq edilməsini, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını təşvişlə qeyd edərək, Azərbaycan Respublikasını və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək, həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiq edərək, böyük sayda mülki şəxsin ən sonuncu yerdəyişmə hadisəsinə və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar şəraitin yaranmasına görə ciddi narahatlıq ifadə edərək:

1. Tərəflərin qəbul etdiyi atəşkəsin bu yaxında hərbi əməliyyatların yenidən başlanmasına səbəb olmuş pozulmasını, o cümlədən Zəngilan rayonu və Horadiz şəhərinin işğalını, dinc sakinlərə hücumları və Azərbaycan Respublikası ərazilərinin atəşə tutulmasını məhkum edir;

2. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən 822 (1993), 853 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq və hərbi kompaniyaya cəlb olunmuş qüvvələrin onu davam etdirmək üçün vəsaitlə təchiz olunmasını təmin etmək məqsədi ilə Ermənistan dövlətini öz təsirindən istifadə etməyə çağırır;

3. ATƏM-in Minsk Qrupunun 9 üzvünün 4 noyabr 1993-cü il tarixli (S/26718) bəyanatını məmunluqla qeyd edir, orada əks olunmuş atəşin dayandırılması barədə birtərəfli bəyannamələrə aid təklifləri yüksək qiymətləndirir;

4. ATƏM-in Minsk Qrupunun 2-8 noyabr 1993-cü il tarixli Vyana müşavirəsində edilmiş müraciətlər də nəzərə alınmaqla «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993), (S/26522, əlavə) saylı qətnamələrin yerinə yetirilməsi üzrə «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»nə əsasən hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılmasını maraqlı tərəflərdən tələb edir;

5. Ən təkidli sürətdə maraqlı tərəfli ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin yardımçılığı ilə qurulmuş birbaşa əlaqələrin nəticəsində əldə olunmuş atəşkəsin təcili bərpa olunmasına, onun səmərəli və

daimi olmasına; münaqişənin danışıqlar yolu ilə ATƏM-in Minsk prosesi və ATƏM-in Minsk Qrupunun 1993-cü il 2-8 noyabrında Vyanada keçirilmiş müşavirəsində «Yeniləşdirilmiş cədvəli»nə edilən düzəlişlər kontekstində nizamlanmasının imkanlarını axtarmağı davam etməyə çağırır;

6. Yenidən təkidlə regionun bütün dövlətlərini münaqişələrinin böyüməsinə, regionda sülhü və təhlükəsizliyi poza biləcək hər hansı bir düşmənçilik aktından, hər hansı bir müdaxilədən çəkinməyə çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən, Zəngilan rayonunun və Horadiz şəhərinin və Azərbaycan cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini; qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmasına kömək etməyi xahiş edir;

8. Yenidən Baş Katibə, ATƏM-in Fəaliyyətdə olan Sədrinə və ATƏM-in Minsk Konfransının sədrinə müraciət edərək gələcəkdə Minsk prosesinin gedişatı barədə və yerdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, ATƏM və BMT arasında bu münasibətlərdə indiki və gələcəkdə əməkdaşlıq barədə məlumat verməlírini xahiş edir;

9. Bu məqsədlə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı
## 26 aprel 1995-ci il

Təhlükəsizlik Şurası 1995-ci il aprelin 26-da onun 3525-ci iclasında «Dağlıq Qarabağda vəziyyətə dair» sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir: «Təhlükəsizlik Şurası özünün 884 saylı» qətnaməsinin 8-ci bəndinə uyğun olaraq ATƏT-in «Dağlıq Qarabağa dair» Minsk Konfransının həmsərhədlərinin təqdim etdiyi məruzələrə (S/1995/249) və (S/1995/321) baxmışdır. Təhlükəsizlik Şurası 1994-cü il mayın 12-də Rusiya Federasiyasının vasitəçiliyi və ATƏT-in Minsk Qrupu ilə qarşılıqlı fəaliyyət sahəsində razılaşdırılmış atəşkəsin bir ilə yaxın müddətdə saxlanılmasından məmnunluğunu bildirir.

Eyni zamanda, Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişədən və gərginlikdən təkrarən narahatlığını bildirir. Təhlükəsizlik Şurası xüsusilə bu yaxınlarda baş vermiş zorakı hadisələrlə əlaqədar narahat olduğunu bildirir və 1995-ci il fevralın 6-da razılaşdırıldığı kimi hadisələrin nizamlanmasında birbaşa əlaqələr mexanizmindən istifadə edilməsinin vacibliyini vurğulayır. O, qətiyyətlə tərəfləri belə hadisələrin gələcəkdə qarşısının alınması üçün bütün zəruri tədbirləri görməyə çağırır.

Şura, regionun bütün dövlətlərinin suverenliyi və ərazi bütövlüyünə əsaslanan özünün bütün qətnamələrini təsdiq edir. O, həmçinin beynəlxalq

sərhədlərinin toxunulmazlığını və ərazi zəbt edilməsi üçün gücdən istifadənin yolverilməzliyini təsdiqləyir.

Təhlükəsizlik Şurası qoşunların geri çəkilməsini təmin etməklə münaqişənin bütün tərəfləri üçün əsas nəticələri aradan qaldırmaq və Minsk Konfransının çağırılmasına imkan yaradacaq, silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişə yönələn Minsk Konfransının həmsədrlərinin bütün səylərinə özünün tam dəstəyini yenidən başlayır.

Təhlükəsizlik Şurası vurğulayır ki, sülh nizamlanmasını əldə etmək üçün əsas məsuliyyəti münaqişə tərəfləri daşıyırlar. Təhlükəsizlik Şurası silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin BMT Nizamnaməsi və ATƏT-in müvafiq prinsipləri əsasında bağlanmasının zəruriliyini bildirir. O, qətiyyətlə tərəfləri, hər hansı bir ilkin şərtləri və prosedur maneələrsiz, konstruktiv danışıqlar aparmağa, sülh prosesini sarsıda biləcək istənilən hərəkətlərdən çəkinməyə çağırır. O, vurğulayır ki, belə sazişin əldə edilməsi ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi üçün ilkin şərtdir.

Təhlükəsizlik Şurası ATƏT-in Budapeşt sammitinin 1994-cü il 6 dekabr tarixli «Dağlıq Qarabağ münaqişəsilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» qərarını alqışlayır. O, tərəflər arasında silahlı münaqişələrin dayandırılmasına dair lazımı qətnamələrlə davamlı siyasi dəstək verməyə hazır olduğunu təsdiqləyir, BMT həmçinin texniki məsləhətlər və ekspert rəyi verməyə hazırdır.

Təhlükəsizlik Şurası tərəflərin Minsk Qrupu çərçivəsində 1994-cü il aprelin 15-də razılaşdırıldığı kimi etibar yaradılmasına dair tədbirləri, xüsusilə də humanitar sahədə, o cümlədən bütün hərbi əsirləri və mümkün saxlanılmaları atəşkəsin birinci ildönümünə azad edilməsinin yerinə yetirilməsinin zəruriliyini vurğulayır. O, tərəfləri silahlı münaqişə ilə toxunulmuş mülki əhalinin iztirablarının qarşısının alınmasına çağırır. Təhlükəsizlik Şurası Baş Katibə, ATƏT-in sədrinə və ATƏT-in Minsk Qrupunun həmsədrliyinə öz tələbini yeniləşdirir ki, Minsk prosesinin irəliləyişi, yerlərdə vəziyyəti, xüsusilə müvafiq qətnamələrin yerinə yetirilməsi, ATƏT və BMT arasında indiki və gələcək qarşılıqlı fəaliyyət haqqında Şuraya məruzə etməyi davam etdirsinlər.

Şura bu məsələyə baxmaqda davam edəcək».

## Ermənilər haqqında

«Qaraçıdan törəmiş erməni ifadəsi elə-belə deyil... ermənilər arasında xeyli miqdarda assimilliyasiya olunmuş qaraçı var...»

**V.İ.Veliçko**

«...Erməni tarixi sanki satqınlarsız ola bilmir...»

**V.Petrosyan**

«Ermənilər ağ dərili kölələr içərisində ən pisləridir. Onlarda xəcalət hissi yoxdur. Oğurluq onlarda geniş yayılıb. Onların təbiəti və dilləri kobuddur. Onlar ancaq döyülmək təhlükəsi və digər qorxu olduqda yaxşı işləyirlər».

**Adam Mess**

«Qarakalis və Dilicanda işlədiyim 5 ay ərzində ancaq 6 namuslu erməniyə rast gəldim. Rast gəldiyim digər ermənilər etibarsız və oğru idilər. Ümumiyyətlə, bu adamlar pozğun əxlaqlı adamlar idi...»

**D-R Brot**
*ABŞ siyasətçisi.*

«Nə Rusiya, nə Qafqazda elə bir adam tapa bilməzsən ki, ermənilər haqqında hansısa bir xoş söz desin. Rusların, tatarların və gürcülərin onlardan zəhləsi gedir, onları görməyə gözü yoxdur. Doğrudur, ya yox, bunu mən demirəm, lakin fakt göz qabağındadır. Ermənilər nifrət oyadan irqdir».

**Skotlent Liddel**
*ingilis jurnalisti.*

«...aclıq illərində ermənilər bir-birini öldürür, oğul-uşaqlarını qızardıb yeyirdilər. Ər arvadını, arvad ərini, bir-birini öldürür, yeyir, doymurdular...»

**Foma Metsonmski,**
*erməni keşiş.*

«Bu xalq /ermənilər/ istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır».

**Tasit**

«Ermənilərin eyibi: badfel, kündəbədən, oğru, gözü götürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy, vəfasız, riyakar, söyüş söyən, ürəyi xıltlı, ağasına düşmənçilik edən».

**«Qabusnamə»**

## Son söz

Son sözü adətən məhkəmədə deyirlər. Bir həqiqəti dərk etməliyik ki, biz Azərbaycan türkləri böyük bir məhkəmə - tarix məhkəməsi qarşısındayıq! Deməli, son söz deməyə hələ vaxtımız var. Mən daha nə deyərdim? Böyük azadlıq mücahidi Xiyabani deyirdi: *«Millətin şərəfini ancaq onun istiqlaliyyəti təmin edə bilər»*.

Mete Xaqan deyirdi: *"Biz tarix yazmadıq, tarix yaratdıq"*.

Atatürk deyib: *"Milli mənliyi olmayan millətlər başqa millətlərin ovu olurlar"*.

Aristotel yazırdı: *"Ədalət bərabərlikdir... amma hamı üçün yox, yalnız bərabərlər üçün bərabərlikdir"*.

**Mündəricat**


*I hissə.* Faktlar nə deyir ........................................................................................3

Qərbi Azərbaycan Mühacir Hökuməti; ..................**Error! Bookmark not defined.**

*II hissə.* Tarix nə deyir..........................................................................................8

Sahil əməliyyatı.....................................................................................................25

Sultanbəyin qızı Bəyim xanımın xatirələrindən ....................................................25

BMT-nin Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsilə bağlı bəyanatları ..........29

BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi................................................32

BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi................................................33

BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi................................................36

BMT Təhlükəsizlik Şurasının qərarları qətnaməsi.................................................38

Ermənilər haqqında ...............................................................................................41

Son söz ..................................................................................................................42

*Ramazan Hüseynov*

Qərbi Azərbaycan

**Bakı, Şirvannəşr, 2006**

*İstehsalat müdiri*
***Nərmin İsabəyli***
*Sex müdiri **Günel Cəfərli***
*Çapçı **Rüxsarə Hüseynli***
*Baş mühasib **Həlimə Qasımlı***

*Ofset üzrə çapçı **Fariq Tofiqoğlu***

*Çapa imzalanıb **31.05. 2006***
*Formatı **60x84 1/16***
*Fiziki çap vərəqi **7,5***
*Sayı **500***